www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu   Gündəlik qəzet  16 sentyabr 2014-cü il  Çərşənbə axşamı  № 231  (5940)   Qiyməti   40 qəpik

**Xəbər**

## Ağcabədidə ağır qəza: 4 ölü

yazısı səh.13-də

**Gündəm**

### Bakıdakı Rusiya forumu Qərbə qarşı çevrildi



Baş nazirin müavini Yaqub Eyyubov: "Heç kim Rusiyanı sındıra bilməz, o, heç vaxt diz çökməyəcək, əksinə..."

yazısı səh.11-də

### Artur Rasizadənin atasının Krımdakı məzarı axtarılır

yazısı səh.6-da

### Zamin Hacının facebook statusu və iki sabiq nazirin cavabı

yazısı səh.5-də

### Milli Şurada nə baş verir?

yazısı səh.6-da

*Tofiq Yaqublu yazır:*

### "Kim nəyi haqq edib?"

yazısı səh.3-də

### Xarici QHT-lərin fəaliyyəti ilə bağlı qaydalar sərtləşdirilir

yazısı səh.6-da

### Din xadimləri üçün vahid forma qərarı etirazla qarşılandı

yazısı səh.12-də

### Qədirin səsi ilə oxuyan uşaq "Yeni Müsavat"a nələr danışdı...

yazısı səh.15-də

### Azərbaycanda yeni cinayət dalğası: "Namus üstə ..."

yazısı səh.13-də

### Ruslar hamamda müsahibə aldı... Bəs bizimkilər?

yazısı səh.15-də

### Eldəniz Quliyev EL Hərəkatından narazılıq elədi

yazısı səh.12-də

### İntiqam Əliyevin həbsinin əsil səbəbi...

yazısı səh.3-də

### İŞİD-in narıncı rəngli kəfəninin şok sirri...

yazısı səh.11-də

## QMİ sədri ilə yeni dövlət müşaviri arasında narazılıq yaranıb

# ŞEYX "EHSAN QADAĞASI"NA QARŞI

Kamal Abdullanın təklif etdiyi "ehsan tənzimləmələri" bütün Qafqazın Şeyxini qəzəbləndirib; Dini Komitə sədrinin mövqeyini yumşaltmasının səbəbi üzə çıxır; ölkənin baş ruhanisi yas mərasimləri ilə bağlı yeni qaydalardan niyə hələ də danışmır...




yazısı səh.10-da

## Müxalifətin 9 il öncə Qərblə razılaşdıra bilmədiyi "siyasi bazarlıq"

2005 seçkilərində "Azadlıq" blokuna 35 deputat yeri təklif edildiyi haqda iddialara Pənah Hüseyn cavab verdi

yazısı səh.8-də




### Deputatdan MSK sədrinə sərt ittihamlar

yazısı səh.6-da



*Mehman Əliyev:*

### "Rauf Arifoğlunun məhkəməyə verilməsi müstəqil medianın susdurulması planından xəbər verir"

yazısı səh.5-də



*Bahar Muradova:*

### "İsa Qəmbərin yanaşması çox yaxşı və doğrudur"

yazısı səh.4-də

# 16 sentyabr 2014



# Prezident məktəb açılışında iştirak edib

**Sentyabrın 15-də prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Bakının Şağan qəsəbəsində yeni inşa edilmiş Füzuli Gözəlov adına 124 nömrəli tam orta məktəbdə olublar. Dövlət başçısına bildirilib ki, məktəbin 1961-ci ildə inşa edilmiş əvvəlki binası istifadəyə yararsız vəziyyətdə idi. Yeni tikilən 1560 şagird yerlik binada tədrisin yüksək səviyyədə aparılması üçün hər cür şərait yaradılıb.**

Prezident İlham Əliyev yeni dərs ili münasibətilə şagirdləri və müəllimləri təbrik edib.

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva Səbayel rayonundakı "Könül" körpələr evi-uşaq bağçasında əsaslı təmir işlərindən sonra yaradılan şəraitlə tanış olub.

# Qarabağ qaziləri seçki keçirdi

**"Qarabağ qaziləri" birliyinin üzvləri sentyabrın 15-də Bakıda bir araya gəliblər. Onlar Şəhidlər xiyabanını, Türk şəhidliyini ziyarət ediblər. Birliyin sədri Etimad Əsədov çıxış edərək 15 sentyabr 1918-ci ildə Nuru Paşanın rəhbərliyi altında Qafqaz İslam Ordusunun Bakını erməni-bolşevik işğalından azad etməsindən danışıb, şəhidlərin ruhuna dualar oxunub.**

Ziyarətin ardınca Qarabağ qaziləri öz mərkəzi ofislərində təşkilatın illik ümumi yığıncağını keçiriblər. Yığıncaqda "Qarabağ qaziləri" birliyinin sədri Etimad Əsədov hesabatla çıxış edib. Etimad Əsədov yenidən birliyin sədri seçilib.

Xəbəri "Qarabağ qaziləri" birliyinin mətbuat xidməti yayıb.

# Hava kəskin dəyişəcək

**Azərbaycanda hava şəraiti dəyişəcək, Bakıda havanın temperaturu 8, rayonlarda isə 10 dərəcəyə kimi enəcək. Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Departamentinin Hidrometeoroloji Proqnozlar Bürosunun direktoru Umayra Tağıyeva "Trend"ə bildirib ki, Bakıda və Abşeron yarımadasında sentyabrın 16-dan 17-nə keçən gecədən başlayaraq, sentyabrın 19-dək Bakıda və Abşeron yarımadasında şimal küləyinin güclənəcəyi ehtimalı var.**

Sentyabrın 17-19-da ötən günlərlə müqayisədə havanın temperaturu tədricən 5-8 dərəcə enəcək. Əsas hava dəyişikliyi sentyabrın 17-də müşahidə ediləcək. Sentyabrın 18-də günorta saatlarında havanın temperaturu Bakıda 20-24 dərəcə isti olacaq. Paytaxtda yağış yağacağı ehtimalı var.

Sentyabrın 16-sı axşamdan Azərbaycanın şimal və qərb rayonlarından başlayaraq, sentyabrın II ongünlüyünün sonuna kimi hava şəraitinin qeyri-sabit keçəcəyi, yağıntılı olacağı, bəzi rayonlarda, əsasən dağlıq və dağətəyi rayonlarda yağıntıların leysan xarakterli, intensiv olacağı gözlənilir. Proses qərb küləyinin güclənməsi ilə müşayiət olunacaq.

Havanın temperaturu ötən günlərlə müqayisədə 8-10 dərəcəyədək enəcək.


## Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz,
biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**



## "Elm" tədris mərkəzi

**MAGIC LANGUAGES**

- ➔ Ali məktəblər xarici dillər
- ➔ kompyuter kursları
- ➔ Magistratura - dövlət qulluğu - məntiq
- ➔ 1.C. mühasibat - anbar - bank işi
- ➔ Məktəbə qədər həftədə 5 dəfə
- ➔ Sürücülük kursları (1 aya 100 AZN)

**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05


# Məhbus NİDA-çının 19 yaşı tamam olur

**Sentyabrın 16-da məhbus NİDA-çı Şahin Novruzlunun ad günüdür. Onun 19 yaşı tamam olur. Şahin Novruzlu 1995-ci ildə Bakıda doğulub. 2012-ci ildən həbs edildiyi 2013-cü ilədək Odlar Yurdu Universitetinin maliyyə fakültəsində təhsil alıb. Subaydır.**



Şahin Novruzlu

Şahin Novruzlu 2013-cü ilin mart-aprel aylarında 7 NİDA-çı gənclə həbs olunub. Onlar əsasən kütləvi iğtişaşları təşkil etmə cəhdində təqsirli biliniblər. Bakı Ağır Cinayətlər Məhkəməsinin 6 may hökmünə görə gənclər Məmməd Əzizov, Bəxtiyar Quliyev, Şahin Novruzlu, Rəşadət Axundov, Üzeyir Məmmədli, Rəşad Həsənov, Zaur Qurbanlı, İlkin Rüstəmzadə 2013-cü il martın 10-da Bakıda kütləvi aksiya zamanı "Molotov kokteyli"ndən istifadəyə hazırlaşırmışlar.

Zaur Qurbanlı, Rəşadət Axundov, İlkin Rüstəmzadəyə 8 il, Məmməd Əzizov, Rəşad Həsənova 7 il 6 ay, Bəxtiyar Quliyev, Üzeyir Məmmədliyə 7 il, Şahin Novruzluya 6 il azadlıqdan məhrumetmə cəzası verilib.

2014-cü il mayın 29-da Bəxtiyar Quliyev, iyulun 8-də Şahin Novruzlu prezident İlham Əliyevə müraciət edərək əfv olunmalarını istəyiblər. Bəxtiyar Quliyev həmçinin NİDA-dan çıxıb və vəkilindən imtina edib.

Şahin Novruzlu hazırda Bakı İstintaq Təcridxanasında saxlanır. Sentyabrın 16-da o, həbsxanada ikinci ad gününü qeyd edəcək.

# Ombudsmanın nümayəndələri Taleh Bağırova baş çəkib

**Ombudsman Elmira Süleymanovanın nümayəndələri Penitensiar Xidmətin 12 saylı Cəzaçəkmə Müəssisəsində ilahiyyatçı Taleh Bağırovla görüşüb.**

İslamçıların Hüquqlarını Müdafiə Komitəsi avqustun 30-da müraciət yayaraq Taleh Bağırovun hüquqlarının pozulduğunu bildirmiş, Elmira Süleymanovadan dustağı nəzarətinə götürməyi xahiş etmişdi.

Sentyabrın 15-də Ombudsman Aparatından "Media forum" saytına daxil olan məlumatda bildirilir ki, müvəkkilin tapşırığına əsasən Taleh Bağırov qəbul edilib. Taleh Bağırov hazırda telefon danışıqları ilə bağlı hər hansı məhdudiyyətin olmadığını bildirsə də, yanına gələn 2 yaxını ilə görüşə icazə verilmədiyini qeyd edib. İlahiyyatçının yaxınlarından biri ilə görüşməsi müəssisə rəisi ilə razılaşdırılıb.

Taleh Bağırov ötən il martın 31-də tutulub. Sabunçu Rayon Məhkəməsi onu qanunsuz narkotik vasitə saxlamada təqsirli bilərək 2 il müddətinə azadlıqdan məhrum edib. Bu il avqustun 13-də Taleh Bağırovdan mobil telefon tapıldığına görə məhkəmə cəza müddətinə 4 ay da əlavə edib.



# Xamneyi xəstəxanadan evə buraxıldı

**İran İslam Respublikasının dini lideri ayətullah Əli Xamneyi xəstəxanadan evə buraxılıb. Dini lider sentyabrın 8-də prostat vəzindən əməliyyat olunmuşdu. Rəsmi məlumatlarda əməliyyatın uğurlu keçdiyi bildirilir.**

"Mediaforum" saytının məlumatına görə, əməliyyatdan sonra bir həftəyə yaxın xəstəxanada müalicə alan ayətullah Xamneyi sentyabrın 15-i səhər evə buraxılıb. Xəstəxanadan çıxarkən dini lider ona göstərilən qayğıya görə İran xalqına və rəsmilərinə, eyni zamanda xəstəxana işçilərinə minnətdarlığını bildirib.

Açıqlamasında ayətullah Xamneyi ABŞ-ın özünü "İraq-Şam İslam dövləti" (İŞİD) adlandıran silahlı qruplaşmaya qarşı mübarizə aparmaq üçün beynəlxalq koalisiya yaratmaq cəhdlərinə də toxunub. İranın dini lideri ABŞ-ın bu cəhdlərini puç və yalan adlandırıb: "İraqda İŞİD-in belini sındıran amerikalılar deyil. Bu, əslində İraq xalqının və ordusunun işidir. Amerikalıların özü və İŞİD də bunu bilir".

# Leyla Yunusun ayağında göyərmə izləri var

## Novella Cəfəroğlu: "İşgəncələrə Qarşı Azərbaycan Komitəsinə müraciət edəcəyik"

**Hazırda həbsdə olan Sülh və Demokratiya İnstitutunun rəhbəri Leyla Yunusun Bakı İstintaq Təcridxanasında təzyiqlərlə üzləşdiyi barədə xəbər vermişdik. Belə ki, hüquq müdafiəçisi öz kamera yoldaşı, dəfələrlə məhkum olunmuş Nuriyyə Hüseynova adlı məhbus tərəfindən vaxtaşırı hücuma məruz qalır. Rəhbərliyə edilən şikayətlər öz bəhrəsini vermir.**



Hətta hücuma məruz qalması ilə bağlı təcridxana rəhbərliyinə etdiyi şikayətə görə, Leyla Yunusa töhmət verilib. Ondan müvafiq sənədə qol çəkmək tələb olunub. Lakin hüquq müdafiəçisi bundan imtina edib.

**Leyla Yunusun vəkili Fariz Namazlı** onun ayağında işgəncə izlərinin olduğunu bildirib: "Vəziyyət doğrudan çox ağırdır. Hamımız çox narahatıq. Nuriyyə adlı kamera yoldaşı onu daim narahat edir. Ona hücum edən Nuriyyə Hüseynova adlı məhbusun Leyla xanımın kamerasından çıxarılıb, başqa kameraya köçürülməsi ilə bağlı müraciət etmişik. Həmçinin bu məsələlərin araşdırılması ilə bağlı da müraciət ünvanlamışıq. Çünki qanuna görə, ilk dəfə məhkum olunmuş şəxslə dəfələrlə məhkum olunmuş şəxsin eyni kameraya salınması qadağandır. Nuriyyə Hüseynova əvvəllər dəfələrlə məhkum olunub. Sonuncu dəfə Leyla xanımla 3 gün öncə görüşmüşəm. Görüşdüyüm zaman ayağında göyərtilər var idi. Zərbə izləri açıq şəkildə hiss olunurdu. Günlər keçdikcə əzilmə olduğuna görə yerində göyərtilər əmələ gəlmişdi".

**Dilarə Əliyeva adına Qadın Hüquqları Müdafiə Cəmiyyətinin rəhbəri Novella Cəfəroğlu Leyla Yunusa qarşı olan təzyiqlərlə bağlı bu gün toplantı keçirəcəklərini bildirdi:** "Toplantıda İşgəncələrə Qarşı Azərbaycan Komitəsinə müraciət edəcəyik. Onların araşdırmaq səlahiyyətləri bizdən daha genişdir. Belə bir hadisə baş veribsə, biabırçılıqdır. Qadına işgəncə vermək heç bir ölçüyə sığmır. Qırmızı Xaç Komitəsinə, ombudsman Elmira Süleymanovaya da müraciət edəcəyik".

**Novella Cəfəroğlu Leyla Yunusla münasibətlərinin soyuq olmasına rəğmən sona qədər onu müdafiə edəcəyini də qeyd etdi:** "Leyla Yunusla olan münasibətlərimizin bu məsələyə dəxli yoxdur. Hətta Ramiz Yunus da deyib ki, mənim ailəmi müdafiə etməsinlər. Biz heç kəsin sözü ilə kimisə ya müdafiə etmirik, ya da müdafiədən çəkilmirik. Öz işimizi görürük. Leyla xanıma olan işgəncələr mənə çox pis təsir edib. O, tutulduğu gündən bu günə qədər bütün istiqamətlərdə işlərimizi görmüşük. Mən Rüstəm Usubovla görüşəndə ondan xahiş etdim ki, Leyla xanımın yerini dəyişsinlər. Şəxsi münasibətlərin işimizə dəxli yoxdur".

# Müsavat meriyanın təklif etdiyi yerlə qismən razılaşıb

**Müsavat Partiyasının Qurultaya Hazırlıq üzrə Təşkilat Komitəsinin növbəti toplantısı keçirilib. Bu barədə APA-ya partiyanın Divan üzvü, başqanlığa namizəd Tural Abbaslı məlumat verib.**

T. Abbaslı bildirib ki, toplantıda qurultaya hazırlıq məsələləri və Bakı Şəhər İcra Hakimiyyətinin (BŞİH) təklif etdiyi, Əmircan qəsəbəsində yerləşən Səttar Bəhlulzadə adına Mədəniyyət Evinin qurultay üçün münasib olub-olmaması müzakirə edilib: "Qərara alınıb ki, Səttar Bəhlulzadə adına Mədəniyyət Evindəki vəziyyət araşdırılsın, müqavilə şərtləri müzakirə olunsun, eyni zamanda şadlıq saraylarının rəhbərləri ilə də danışıqlar davam etdirilsin".

Qeyd edək ki, partiya qurultayını sentyabrın 27-nə təyin edib.

# Qubad İbadoğlu rayonlara səfər edib

## Müsavat başqanlığına namizəd həftə sonu bir neçə rayonda görüş keçirib

**Müsavat Partiyası başqanlığına namizədlərin təbliğat-təşviqat kampaniyası davam edir. Başqanlığa namizədlərdən Qubad İbadoğlu həftə sonu bir neçə rayona səfər edib. Bu barədə musavat.com-a açıqlama verən namizəd deyib ki, həmçinin onun gənclərlə də görüşü olub.**

"Gənclik hər zaman Müsavatın aparıcı qüvvəsi olub. Gəncliyə xitab, onu öz sıralarında daha fəal görmək arzusu Müsavat liderlərinin çıxış və məqalələrində önəmli yer tutur. Məhəmməd Əmin Rəsulzadə 1914-cü ildə yazdığı "Milli Dirilik" məqaləsinin sonunda üzünü gənclərə tutub deyirdi: "Ey millətin istiqbalını təmin edəck Türk gəncliyi hardasan?" Gənclərlə keçirilən görüşdə mən bir daha bu qənaətə gəldim ki, hazırkı Müsavat gəncliyi məhz həmin mübariz gəncliyin xələfidir. Bu gün də Müsavat gəncliyi istiqlal mücadiləsinin önündə gedir, haqsızlıqla, ədalətsizliklə barışmadığnı nümayiş etdirir. Mən mənsub olduğum partiyanın gəncləri ilə fəxr edirəm",- deyə o bildirib.

Həmçinin həftə sonu Q.İbadoğlu Şirvan və Muğan bölgəsində olub: "Sabirabad və Saatlı müsavatçıları ilə görüşümüzdən hər iki tərəf razı qaldı". Daha bir görüş İmişlidə keçirilib. "İmişlidə görüşümüz təşkilatın intellekt səviyyəsinin yüksək olduğunu bir daha nümayiş etdirdi",- deyə namizəd qeyd edib.

Göyçayda da görüşdə daha çox gənclər iştirak ediblər. "Göyçayda keçirilən görüşdə diqqətimizi çəkən ən fərqli cəhət gənclərin iştirakı idi",- deyə o bildirib.

Eyni zamanda həmin gün Ağcabədi və Beyləqan rayonlarında da görüşlər keçirilib.

❑ Röya

YENİ MÜSAVAT
N 231 (5940) 16 sentyabr 2014



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# “İntiqam Əliyevin həbsi Avropa Məhkəməsinə göndərdiyi işlərlə bağlıdır”

## Cavad Cavadlı: “Onun həbsi bu işlərin gedişatına çox ciddi maneə törədir”



**Hüquq Maarifçiliyi Cəmiyyətinin rəhbəri İntiqam Əliyevin həbs olunmasından 1 ay 1 həftə ötdü. Hüquq müdafiəçisinə Cinayət Məcəlləsinin 213.1-ci (vergidən yayınma), 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə etmə) və 192.2-ci (qanunsuz sahibkarlıq) maddələri ilə ittiham elan olunub.**

O, hazırda 1 saylı Bakı İstintaq Təcridxanasında saxlanılır. Tanınmış hüquqşünas sifarişlə həbs edildiyini deyir. Həmkarları isə qeyd edirlər ki, onun həbsi sırf hüquq fəaliyyəti ilə bağlıdır. Belə ki, İ.Əliyev Azərbaycanda insan haqlarının pozuntusu ilə bağlı Avropa İnsan Hüquqları Məhkəməsinə çoxsaylı şikayətlər göndərib. Hazırda 2010-cu il parlament seçkiləri ilə bağlı Avropa Məhkəməsinə göndərdiyi 40-dan çox şikayət üzrə hökumətlə kommunikasiya gedir. İntiqam Əliyevin həbsinin həmin seçki işləri üzrə Azərbaycana qarşı Avropa Məhkəməsi tərəfindən qərar çıxarılmasının qarşısını almağa xidmət etdiyi haqda da fikirlər var. Təsadüfi deyil ki, rəhbəri olduğu Hüquq Maarifçiliyi Cəmiyyətinin ofisində axtarış aparılarkən həmin seçki işlərinə dair bütün sənədlər (vəkil dosyesi) istintaq orqanı tərəfindən ittihama heç bir əlaqəsi olmadığı halda götürülüb.

**İ.Əliyevin vəkillərindən biri - Cavad Cavadov bildirir ki, müvəkkilinin həbs olunmasında Avropa Məhkəməsinə göndərdiyi və bir çox hallarda qalib tərəf olmasının mənfi mənada böyük rolu olub:** “İntiqam Əliyevin evində və ofisində qanunsuz axtarış aparılması ilə bağlı şikayətlərimizi məhkəmə nəzarəti qaydasında vermişdik və şikayətimiz təmin olunmamışdı. Bu həftə Avropa Məhkəməsinə İntiqam Əliyevin qanunsuz həbsi və digər məsələlərlə bağlı şikayətlər göndəriləcək. Hazırda İntiqam Əliyevin saxlanma şəraiti ilə bağlı narazılığı yoxdur. Amma vəkillərlə ünsiyyətdə ona problemlər yaradılır. Sənədləri alınır və senzuradan keçirildikdən sonra vəkillərə təqdim olunur. Buna görə də müdafiə tərəfi olaraq Bakı İstintaq Təcridxanası nəzarətçilərinin hərəkətlərindən İnzibati-İqtisad Məhkəməsinə şikayət ünvanlamışıq”

**Vəkil deyir ki, İ.Əliyevin Avropa Məhkəməsinə parlament seçkilərindəki pozuntularla bağlı göndərdiyi şikayətlər təsdiqlənəcəyi təqdirdə həmin seçkilərin nəticələrinə dair əsaslı şübhələr yaranacaqdı:** “İntiqam Əliyevin həbsindən əvvəl Azərbaycan hökuməti artıq kommunikasiya başlamış işlər üzrə barışıq təklif etmişdi. Lakin İntiqam Əliyevin hüquqlarını qoruduğu şəxslər barışıqdan imtina etmişdilər. İntiqam Əliyevə həmin işlərdən imtina ilə bağlı təkliflər olmuşdu, o, imtina etmişdi. İddiaçılar da təkid edirlər ki, qərar verilsin. Bu məsələdən əvvəl 6 iş üzrə dövlətlə barışıq imzalanmışdı və bundan sonra dövlətin təkidi ilə Avropa Məhkəməsi həmin işləri baxılma siyahısından çıxarmışdı. Hazırda İntiqam Əliyevin 2010-cu il parlament seçkiləri ilə bağlı Avropa Məhkəməsinə göndərdiyi 40-dan artıq iş üzrə qərar çıxarmaq mərhələsidir”.

**“İntiqam Əliyevin həbsi həmin işlər üzrə qərarların nəticəsinə təsir edəcək” sualına vəkilin cavabı belə oldu:** “İntiqam Əliyevin ofisində aparılan qanunsuz axtarış zamanı oradan Avropa Məhkəməsinə göndərilən işlər üzrə dosyelər götürülüb. Təbii ki, bu, Avropa Məhkəməsi ilə ünsiyyət saxlamağa çətinlik yaradır. İntiqam Əliyevin həbsi həmin işlər üzrə qərarların verilməsini ləngidə, hətta nəticəsinin iddiaçıların xeyrinə olmaması ilə yekunlaşa bilər. İntiqam Əliyevin başladığı işi digər bir hüquqşünasın sona çatdırması da mümkündür. Biz Avropa Məhkəməsinə müraciət hazırlamışıq. Həmin müraciətdə bildirmişik ki, bu işləri təmsil edən nümayəndə qanunsuz həbsdədir. İntiqam müəllim özü də çalışır ki, işlərdə ləngimə olmasın. İntiqam Əliyevin həbsi birbaşa bu işlərin gedişatına çox ciddi maneçilikdir”.

**Müdafiəçi deyir ki, İntiqam Əliyevin həbsinə əsas yaradan mübahisənin aradan götürülməsi üçün bu işlərə bir qədər tez baxılması asan proses deyil:** “İntiqam Əliyevin digər nümayəndə ilə əvəzlənməsi çox vaxt apara bilər”.



**“Çexiyada ona rəsmilər səviyyəsində deyilibmiş ki, Azərbaycana qayıtsa, həbs olunacaq”**

C.Cavadovun sözlərinə görə, İntiqam Əliyevin sağlıq durumunda müəyyən problemlər olsa da, o, bu məsələnin ictimailəşdirilməsinin qəti əleyhinədir. Bizim təkidlərimizə baxmayaraq, o, digər siyasi və vicdan məhbusu olan şəxslərin də sağlıq durumlarında problemlərin olduğunu əsas gətirərək bundan imtina edir.

**Vəkil bir maraqlı məqamı da qeyd etdi ki, İntiqam Əliyevə həbsindən bir müddət öncə xəbərdarlıq edilibmiş:** “Çexiyada ona rəsmilər səviyyəsində deyilib ki, Azərbaycana qayıtsa, həbs olunacaq. Lakin o, Azərbaycana qayıtmağa qərar verib. İndi də bildirir ki, həbs olunması ilə müəyyən rahatlıq tapıb. O, həbsindən əvvəl ictimai fəalların məhkəmələrində iştirak edəndə özünü çox narahat hiss edirdi. Çex rəsmiləri ona ölkəyə getməməsini söyləyəndə, deyib ki, Azərbaycanda xeyli görüləsi işlər var. İntiqam müəllim Bakı İstintaq Təcridxanasında saxlanılan yeganə şəxsdir ki, oradakı kitabxanada kitabları var”.

Xatırladaq ki, "Amnesty International" da hesab edir ki, İntiqam Əliyevin həbsi insan haqlarının müdafiəsi sahəsindəki fəaliyyəti ilə əlaqədardır. Təşkilat onu "vicdan məhbusu" sayır.

❑ **E.MƏMMƏDƏLİYEV**

# Kim nəyi haqq edib?

*(Bu yazımı şərlənərək həbs edilmiş, istedadlı jurnalist, siyasi məhbus Seymur Həziyə ithaf edirəm)*



**İqtidar deyir ki, bizdə siyasi məhbus yoxdur, istintaq və məhkəmələr müstəqildir, hakimiyyət onların işinə müdaxilə etmir. Biz də təbii ki, əksini deyirik. İndi sizə barəmdə olan hökmdən bir hissəsini təqdim edirəm: “2.02.2013-cü il tarixli protokola əlavə edilmiş internet sosial şəbəkəsinin facebook.com saytındakı “Tofiq Yaqublu” səhifəsindəki yazıların mətni də təqsirləndirilən şəxs Tofiq Yaqublunun 24.01.2013-cü ildə İsmayıllı şəhərində kütləvi iğtişaşları təşkil etmək və hakimiyyət nümayəndələrinə zor tətbiq etməklə müqavimət göstərməyə yönələn hərəkətlərini bir daha təsdiq edir. O, istintaqa verdiyi ifadələrdə İsmayıllı şəhərinə baş vermiş hadisələri müşahidə məqsədi ilə getməsi, yerli sakinlərlə ona istinad edilən əməllər üzrə söhbət etməməsi, kütləvi iğtişaş təşkil etməməsi barədə xüsusatları təkzib edir".**

Bax belə!

İndi isə mənin facebookda İsmayıllı hadisələri ilə bağlı nə yazdığımı olduğu kimi sizə təqdim edəcəm, hansıları ki, istintaq olduğu kimi işə əlavə edib və hakim Rəşid Hüseynov da hökm verərkən ona istinad edib. Bir şeyi də bildirim ki, mən İsmayıllı hadisələri haqda çoxları kimi 2013-cü il yanvarın 23-dən 24-nə keçən gecə hadisələrin bitmək üzrə olduğu zaman xəbər tutmuşam və 10 minlərlə facebook istifadəçisi kimi bir-iki fikir bildirmişəm. Beləliklə, cinayət işi materiallarına əlavə edilmiş həmin statusları olduğu kimi təqdim edirəm:

“Tofiq Yaqublunun səhifəsində aşağıdakı statuslar müəyyən edildi:

24 yanvar 2013-cü il, saat 00:30-da “ İndicə məlumat verdilər ki, İsmayıllının icra başçısının evini yandırırlar”.

24 yanvar 2013-cü il, saat 00:43-də “Aldığım dəqiq məlumata görə üsyançılar icra başçısının evinə giriblər, həyətdə iki motosikleti yandırıblar. İndi də qarajı oda veriblər. İnsanlar çoxdur, polis müdaxilə edə bilmir”.

24 yanvar 2013-cü il, saat 00:47-də “İcra başçısının qarajı yavaş-yavaş yandı, alov evinə keçdi. İndicə hadisə yerindən məlumat verdilər”.

24 yanvar 2013-cü il, saat 00:50-də “Ev də yanır, ən maraqlısı odur ki, üsyan "İstefa" şüarları ilə başlayıb".

24 yanvar 2013-cü il, saat 01:14-də “İsmayıllıya hərbi qüvvə yeridilməsi məsələsinə aydınlıq gətirildi. Hələ elə bir şey yoxdur, sadəcə olaraq, bir yük maşını ilə dəbilqəli və dəyənəkli polislər gətiriblər hadisə yerinə, onlar heç nəyə müdaxilə etmirlər. Ola bilsin ki, indən belə gətirsinlər”.

29 yanvar 2013-cü il, saat 20:11-də “ Salam, bəylər və xanımlar. Deməli belə, bu gün məni Respublika Prokurorluğuna çağırıb dindirdilər. Yanvarın 24-də İsmayıllıya getdiyimə görə. Xalqın oğrulara, talançılara, harınlara qəzəblənərək üsyan etməsini başqa səmtə yönəltmək istəyirlər. Guya ki, mən də REAL-ın sədri İlqar Məmmədov da yerli camaatı üsyana çağırmışıq. Ağ yalandır. Nə bilirlər, onu da etsinlər”.

Hə, hörmətli oxucular, xoşunuza gəldi? Bir daha xatırladım ki, yanvarın 23-də baş vermiş hadisələr haqqında yalnız gecədən keçmiş xəbər tutmuşam. Həmin gün adamların facebookda nələr yazdığını bir daha xatırlayın. 24 yanvarda isə İsmayıllıda heç bir iğtişaş-zad olmayıb. Məni isə 24 yanvar 2013-cü ildə saat 16-17 arasında “baş vermiş iğtişaşı təşkil etdiyimə” görə ittiham edirlər. Biləsiniz ki, həmin vaxt İsmayıllıda tam sakitlik olub, hər şey Daxili Qoşunların nəzarətində olub. Həmin gün mən saat 16:10-da İsmayıllı şəhərinə gəlmişəm, dərhal da məni maşına oturdaraq, yol polisinin müşayiəti ilə Bakıya qaytarıblar. Onu da xatırladım ki, iş materiallarının içində ən “urvatlı” sübut facebook səhifəmdəki statuslarımdır. O birilər daha da absurddur və gülüncdürlər. Facebook məsələsində olduğu kimi onlar yığcam və konkret olmadığından yazmadım, çünki vaxt və yer alar.

Şəki Apelyasiya Məhkəməsində çıxış edərkən, bu hökmə istinad edərək, əvvəlki hakim Rəşid Hüseynov haqda layiq olduğu ifadələri işlədirdim. Hakim Mirbahəddin hakim Rəşid Hüseynov haqda hörmətlə danışmağı tələb edirdi. Sizcə, bütün məhkəmə prosesi boyu “mənə heç kəs təzyiq etmir, ancaq ədalətli qərar çıxaracağam” sözlərini təkrarlamış Şəki Ağır Cinayətlər Məhkəməsinin hakimi Rəşid Hüseynov barəsində hörmətlə danışmağı haqq edibmi? Düşünürəm ki, mən həbsi nə qədər haqq etmişəmsə, o da haqqında hörmətlə danışılmağı o qədər haqq edib.

❑ **Tofiq YAQUBLU**

YENİ MÜSAVAT
N 231 (5940) 16 sentyabr 2014

# “İqtidar daha neyləməlidir?”

## Bahar Muradova: “Kimsə bizi istəmirsə, bu, bizim günahımız deyil ki...”

**“İqtidar tribunası”**

**Milli Məclis sədrinin müavini, Yeni Azərbaycan Partiyası (YAP) Siyasi Şurasının və İdarə Heyətinin üzvü Bahar Muradova ölkənin ictimai-siyasi mühiti ilə bağlı aktual olan məsələlər haqqında “Yeni Müsavat”a geniş müsahibə verib. Müsahibəni diqqətinizə çatdırırıq:**

***- Bahar xanım, öncə son günlər ən çox müzakirə predmetinə çevrilən məsələyə sizin münasibətinizi bilmək istərdim: yas və toy adətləri ilə bağlı qaydaların sərtləşdirilməsi qanunvericiliyin dəyişdirilməsinə ehtiyac var, yoxsa siz bu məsələdə inzibati metodları məqbul saymırsınız?***

- Vəziyyəti ciddi şəkildə nəzarətdə saxlamaq lazımdır. İctimai nəzarət ən effektiv üsuldur. Əlbəttə ki, müvafiq qurumların bu məsələyə müdaxiləsinə də ehtiyac var. O ki, qaldı qanunverici səviyyədə buna baxılmalıdır, yoxsa yox, düşünürəm ki, mərasimlər, adət-ənənə heç bir qanunla tənzimlənməsi ilə bağlı yeni bir qanunverici dəyişikliyin, yaxud hansısa bir layihənin ortaya qoyulmasına ehtiyac yoxdur. Bu mərasimləri qanunla necə tənzimləmək olar, şəxsən mən onun konturlarını tam şəkildə görə bilmirəm. Bizim qədimlərdən gələn formalaşmış münasibətlərimiz var. Onlar elə qanun rolunu oynaya bilər. Bunu çoxluğun qəbul etməsi üçün də bir çox addımlar atıla bilər. Hazırda belə addımlar ortada var və artıq onun nəticələrini də görürük. İstər yas, istər toy mərasimləri xalqımızın adət-ənənəsinə, müasir dünyanın tələblərinə uyğun gəlməlidir və ifrat israfçılıq meyllərinin qarşısı alınmalıdır.

***- QHT rəhbərlərinin əksəriyyəti bank hesablarının qapalı olduğunu, iflic hala salındığını bəyan edir. Belə total təzyiqlər normal haldırmı? Ümumiyyətlə, bu sektorla bağlı nə baş verir?***

- Belə bir araşdırma aparmaq elə həm də mətbuatın işidir. Mətbuat özü ölkədəki minlərlə QHT-nin fəaliyyətini ümumi araşdıra bilər və özü bir qənaətə gələ bilər ki, bunun nə qədəri siz deyən vəziyyətdədir, nə qədəri vətəndaş cəmiyyətinin formalaşması, sərbəst fəaliyyəti üçün yaradılmış imkanlardan necə istifadə edir. “Total şəkildə hesablar bağlanır” fikrinə gəldikdə, mən indiyədək məhkəmə qaydasında hansısa bir QHT-nin ya hesablarının, ya özünün fəaliyyətinin davam etməsinə qadağa qoyulmasına rast gəlməmişəm. Bildiyimə görə, kimlərinsə, hansısa QHT-lərin hesabına məhdudiyyət qoyulubsa, onlar da müəyyən istintaq hərəkətləri aparılan fəaliyyətlə bağlı olan təşkilatlardır. Bu fəaliyyət sona çatandan sonra onlarla bağlı aydın bir təsəvvür, aydın vəziyyət yaranacaq. Amma indidən istintaq hərəkətləri getdiyi üçün qəti fikir söyləmək olmaz.

***- Qanunvericiliyə dəyişiklik olunacağı, qaydaların daha da sərtləşəcəyi barədə məlumatlar nə dərəcədə həqiqətdir?***

- Qaydaların sərtləşdirilməsinə ehtiyac var. Bunu təkcə mən demirəm. Bu gün demokratik dünya, hansı ki, biz demokratiyadan danışanda üzümüzü o ölkələrə tutub deyirik - hesab edirəm ki, doğru da edirik - qabaqcıl təcrübədən maksimum yararlanmaq, istifadə etmək lazımdır. Vətəndaş cəmiyyəti qurumlarının bu və ya digər hərəkətlərini məhdudlaşdıran qanunverici baza, müəyyən maddələr, xüsusi qanunlar var. ABŞ-da agentlər haqqında qanunu oxusanız heyrətlənərsiniz. Bir çox hallarda belə bir qanunların qəbulu real vəziyyətdən doğur. Qabaqlayıcı, xəbərdaredici tədbir kimi belə qanunların, müddəaların olması doğrudur. Bir də ki, hər şeydə şəffaflıq tələb edən cəmiyyətdə yaşayırıq. Bu şəffaflıq şəffaflığı daha çox tələb edənlərin özündən də tələb olunmalıdır. Odur ki, QHT-lərin fəaliyyətinin şəffaflığını təmin edən qanunverici bazanın olması vacibdir. Bu sahədəki boşluqları aradan qaldırmaq həm QHT-lərin özünün fəaliyyətini daha faydalı, səmərəli, aydın və konkret - müvafiq qurumlarla və bir-biri ilə - qurulmasına şərait yaradacaq, həm də bu kimi hallardan sui-istifadələrin qarşısını alacaq. Ona görə də bəli, bəzi addımları atmağa ehtiyac var.

***- Azərbaycanın Avropa Şurası Nazirlər Komitəsinə sədrliyi dövründə siyasi mahiyyətli həbslər və ictimai-siyasi təşkilatların fəaliyyəti ilə bağlı bir sıra addımların atılacağı gözlənilsə də, vəziyyət yaxşılığa doğru dəyişmədi. Bu mənada Avropa Şurasının toplantısında hakimiyyətin suallarla üzləşəcəyini, Azərbaycanın əleyhinə olan qüvvələrin əl-qolunun daha da açılacağını gözləyirsinizmi?***

- Mən beynəlxalq təşkilatda fəaliyyət göstərən adamam. Əvvəlki ictimai-siyasi fəaliyyətimdə bu kimi məsələlərə yanaşmam bir başqaydı. Öz-özlüyündə Azərbaycan beynəlxalq ictimaiyyətin, təşkilatların üzvüdür, bura daxil olan ölkələr də o təşkilatların daxili qaydaları ilə fəaliyyət göstərir. Bir qayda olaraq bütün ölkələr bu və ya digər təşkilatlarda hesabatlar verməli, sualları cavablandırmalı olurlar, tənqidlərə, sanksiyalara məruz qalırlar, o təşkilatdan çıxarılmaya qədər hədələrlə üzləşirlər. Şükür Allaha ki, Azərbaycan bu günə qədər bir çox ölkələrin yaşadığı durumu yaşamayıb və yaşamayacaq da. O ki qaldı kimlərsə düşünürdü ki, Azərbaycanın Avropa Şurasına sədrliyi zamanında hansısa addımlar atılacaq, kimlərsə həbsdən buraxılacaq... Azərbaycan hələ Avropa Şurasına yenicə üzv olduqdan sonra, hətta üzv olmamışdan əvvəl də bu və ya digər şəxslər cənab prezidentin, vaxtilə ulu öndərin verdiyi sərəncamlara, fərmanlara, digər qanunverici normativ aktlara görə bu və ya digər cəzanın çəkilməsindən azad edilirdilər, vaxtından əvvəl azadlığa çıxırdılar, əfv olunurdular. Yəni bu, normal bir prosesdir ki, Azərbaycanda hər zaman gedir. Bunu hansısa 5-6 aylıq sədrliyə bağlamaq, belə olacaq, elə olacaq demək, dövlətin yeritdiyi siyasəti konkret dövrə bağlamaq ancaq naşıların və diletantların işidir. Bu illər ərzində belə yanaşmalar çox olub. Azərbaycan bütün sahələrdə prinsipial və qətiyyətli siyasət ortaya qoyan ölkədir. Azərbaycanı bu və ya digər mövqeyini gündə hansısa konyuktur maraqlara uyğun dəyişən dövlətlərlə qarışıq salmaq olmaz. Azərbaycana dost olmayan mövqedə olan dairələrin mövcudluğu da ölkəmizin müstəqil siyasət yürütməsi ilə daha çox bağlıdır. Bir çoxlarının bunu gözü götürmür, bir çoxlarının bu və ya digər planlarına mane olur, yaxud planlarının reallaşmasının qarşısını alır. Öz imkanlarının, öz taleyinin, öz siyasətinin sahibi olan bir ölkə əlbəttə ki, heç kəsin diktəsini qəbul etmir. Ona görə də Azərbaycana zidd mövqedə olan qrupların məhz belə beynəlxalq təşkilatlarda cəmləşməsinə şərait yaradır. Baxın, Ermənistan xaric, bizim ikitərəfli kontekstə heç bir ölkə ilə düşmən, dost olmayan mövqeyimiz yoxdur. Bütün parametrlər üzrə böyük və kiçik dövlətlərlə çox gözəl münasibətlərimiz var. Ən çətin qonşuluqda yaşayırıq və bütün bu ölkələrlə qarşılıqlı etimada əsaslanan münasibətlər qururuq. Bizə zidd mövqedə olanlar məhz bu beynəlxalq təşkilatlarda, xüsusilə parlament assambleyalarında formalaşır. Harda ki, o insanlar bu və ya digər qrupların ona olan münasibətindən asılıdır, beynəlxalq dairələrə xidmət etmək onların özünüifadə və təzahür formasına çevrilib. O insanlar fəaliyyət göstərdikləri ölkədə Azərbaycana qarşı belə bir münasibət ortaya qoya bilmirlər. Məhz belə mövqeli insanlar qruplaşaraq Azərbaycana qarşı qıcıqlandırıcı mövqedən çıxış edirlər, guya suallar ünvanlamaqla bizi qorxudurlar. Ancaq istər cənab prezident, istər faktiki sədrliyi həyata keçirən Elmar Məmmədyarov istənilən beynəlxalq təşkilatda istənilən suala açıqdırlar. Konkret, qəti, açıq mövqeyi ilə də bu sualları cavablandırıblar, heç nədən çəkinmədiklərini ortaya qoyublar. Bu, Azərbaycandır və hər bir vətəndaş ölkəmizin bugünkü qətiyyətli mövqeyi ilə qürur duymalı, kiminsə ona təzyiq göstərmək istəməsini bizim nöqsanlı cəhətimiz kimi qələmə verməkdən uzaqlaşmalıdır. Kimsə bizi istəmirsə, bu, bizim günahımız deyil ki. Bu, bizə yönəlik maraqlara, yaxud digər məsələlərə bağlıdır. Ona görə də hesab etmirəm ki, başqalarının bizə münasibətini dəyişmək üçün özümüz günbəgün onların maraqlarına uyğun dəyişməliyik.



### “Şükür Allaha ki, Azərbaycan bu günə qədər bir çox ölkələrin yaşadığı durumu yaşamayıb və yaşamayacaq da”

***- Ölkə daxilindəki əsas problemlərdən biri də iqtidar-müxalifət münasibətləri ilə bağlıdır. Bu istiqamətdə, nəhayət, yeniliyin şahidi ola biləcəyikmi?***

- Mən bugünlərdə Müsavat Partiyasında keçiriləcək qurultay və başqan dəyişikliyi ilə bağlı partiya başqanının mövqeyinə rast gəldim. O söyləyir ki, seçki olacaq və seçilən davam edəcək, seçilmədiyinə görə çıxıb gedənsə yanlış yolda olacaq. Yəni seçilməyən məğlubiyyətini etiraf etməli, qəbul etməlidir. Çox yaxşı və doğru-dürüst yanaşmadır.

### “İsa Qəmbərin yanaşması çox yaxşı və doğru-dürüstdür”

***- Məncə, siz ilk dəfədir ki, İsa Qəmbərin yanaşmasına bu şəkildə münasibət bildirirsiniz...***

- Ona görə ki, yanaşma olaraq məntiqlidir.

***- Bəlkə sərfəli yanaşmadır, ona görə?***

- *(Gülür)* Ayrılıqda götürəndə Müsavat daxilində sərfəli yoldursa, ölkə miqyaslı proseslərdə də sərfəli olmalıdır. Bax, eyni mövqeni əgər istənilən müxalifət partiyası xarakterindən, məqsədindən, nə zaman keçirilməsindən, nəticələrindən, uğurlu-uğursuz olmasından asılı olmayaraq bütün seçkilərə münasibətdə belə bir mövqe ortaya qoyulacaqsa, onda mən sizi əmin edirəm ki, iqtidar-müxalifət problemi deyilən bir problem olmayacaq. Bu, həm də o demək deyil ki, ölkədə belə bir ciddi problem var. Ölkə əhalisinin mütləq əksəriyyəti hazırkı iqtidarın siyasətini dəstəkləyir və bunu heç kəs inkar edə bilməz. Əlbəttə, azlıqda qalan hissə də var, bu siyasəti məqbul hesab etmir. Cəmiyyətdə müxalif fikirli insanlar var və biz həmişə maraqlıyıq ki, o insanların fəaliyyəti üçün normal bir mühit formalaşdıraq.

***- Müsavatdan dəvət gələrsə, qurultayda iştirak edərdinizmi?***

- Bizdə bu və ya digər tədbirdə iştirak etmək partiyanın ümumi qərarıyladır.

***- Şəxsən YAP-ın qurultaya qatılmasını mümkün sayırsınız?***

- İstənilən siyasi partiyanın tədbirində digər ictimai-siyasi təşkilatların, yaxud ziyalıların, ictimai xadimlərin iştirakında mən problem görmürəm. Problem başqa bir məsələdədir. Onu siz də bilirsiniz, ictimaiyyətdə. Yəni içəridəki problemi, qəbul etməkliyi, tanımamazlığı...

***- Konkretləşdirsək, iqtidar müxalifəti, müxalifət də iqtidarı tanımır deyə, belə vəziyyət yaranıb?***

- İlk növbədə iqtidar tanınmalıdır da. Sən iqtidarı tanımırsansa, seçkinin nəticələrini legitim hesab etmirsənsə, tələb edirsən ki, səni tanısınlar? İqtidarın tanıması odur ki, bu təşkilat rəsmi qeydiyyata alınıb, bank hesabı var, üzvləri, təşkilatları var, iqtidar daha neyləməlidir? Məni başa salın, mən də deyim. İqtidarın işi elə budur.

***- Elə müxalifət də iqtidarın qəbul etdiyi qaydalar çərçivəsində fəaliyyət göstərir, qanunlara dəyişikliklərə uyğun davranır...***

- Mən çox şadam ki, müxalifət içərisində artıq getdikcə daha çox məntiqli düşüncə üstün gəlməyə başlayır ki, real olanı tanımaq lazımdır. Yəni onu tanımadan özünü tanıtdırmaq qeyri-mümkündür. Ən azı bunu ictimaiyyət qəbul etmir.

❑ **Elşad PAŞASOY**

# "Rauf Arifoğlunun məhkəməyə verilməsi müstəqil medianın susdurulması planından xəbər verir"

## Mehman Əliyev: "Proseslər onu göstərir ki, dövlət müstəqil medianın olmasında, onun inkişafında maraqlı deyil"

**"Azərbaycanda avtoritar rejim, məmur kapitalizmi hökm sürür. Ona görə də məmurlar hər sahədə vətəndaşlara meydan oxuyurlar". Bu sözləri "Turan" İnformasiya Agentliyinin direktoru Mehman Əliyev Anar Məmmədovun "Yeni Müsavat" qəzetinin baş redaktoru Rauf Arifoğlundan məhkəməyə xüsusi ittiham qaydasında şikayət etməsinə münasibət açıqlayarkən deyib.**

**Mehman Əliyev** deyir ki, Azərbaycanda məmurlardan da məhkəmələrə xeyli şikayətlər olur. Ancaq məhkəmələr məmurları cəzalandırmır: "Biz "Turan" İA olaraq dəfələrlə məmurları bizə qarşı qanunsuz hərəkətlərinə görə məhkəmələrə vermişik. Məhkəmələrə yetərincə faktlar təqdim etmişik. Həm korrupsiya ilə, həm vəzifə səlahiyyətlərinin aşılması, həm informasiya məkanının məhdudlaşdırılması ilə bağlı şikayətlərimiz olub. Hansı məmur bu iddialar üzrə məhkəmələrə cəlb olunub ki? Heç bir məhkəmə bizim iddialarımızı təmin etməyib, əksinə, açıq-aşkar qanunu pozaraq məmurların xeyrinə qərarlar çıxarılıb. Bu sistem belə qurulub. Biz dövlət başçısına, Prezident Administrasiyasının rəhbərinin adını, hüquq-mühafizə orqanlarının rəhbərliyinə, baş nazirə, Milli Məclisin sədrinə dəfələrlə Kür daşqınlarında hüququ pozulan insanlarla bağlı müraciətlər yazdıq. Söhbət yüz milyonlarla vəsaitin mənimsənilməsindən gedirdi. Dəfələrlə edilən müraciətlərimizə məhkəmələrdə bir dəfə də baxılmadı, ölkə rəhbərliyi səviyyəsində münasibət də olmadı".



Mehman Əliyev

**Mehman Əliyev bildirir ki, Azərbaycan məhkəmələrində məmurlar iddia qaldırdıqda adətən onların iddiaları təmin edilir. Buna baxmayaraq, praktikada istisnalar da olub:** "Məsələn, 2008-ci ildə Vergilər Nazirliyi bizə qarşı qanunsuz hərəkət eləmişdi. Biz həmin məhkəməni udduq və Vergilər Nazirliyinin qanunsuz qərarını ləğv etdirdik. Ancaq yaxın illərdə belə bir praktika xatırlamıram. Ümumiyyətlə, media-məmur münasibətlərinin məhkəmələrdə çözülməsi uğurlu çözüm yolu deyil. Biz Mətbuat Şurasını yaradanda düşünürdük ki, qurumun əsas işlərindən biri də media ilə məmurlar arasında münasibətlərin nizamlanması olacaq. Hesab edirdik ki, Mətbuat Şurası məmurlarla bu sahədə xüsusi iş aparacaq. Açığı, biz bir müddət buna nail ola bildik. Ancaq sistem bütövlükdə uzun müddət işləyə bilmədi. Bizim media ilə bağlı mübahisələri çözəcək ayrıca məhkəmə yaratmaq ideyamız da var idi. Çox təəssüf, bunları reallaşdırmaq mümkün olmadı. Çünki dövlətin belə bir istəyi yoxdur".

**Mehman Əliyevin fikrincə, Anar Məmmədovun "Yeni Müsavat" qəzetinin baş redaktoru Rauf Arifoğlunu məhkəməyə verməsi dövlətin müstəqil medianı tamamilə susdurmaq planından xəbər verir:** "Proseslər onu göstərir ki, dövlət müstəqil medianın olmasında, onun inkişafında maraqlı deyil. Ona görə də biz bu vəziyyətdəyik. Məmurların, onların yaxınlarının medianı məhkəməyə verməsi açıq-aydın təzyiq metodudur. Bu gün Azərbaycan məhkəmələrində məmur özbaşınalıqları ilə bağlı minlərlə faktlar var. Onlardan biri də icraata alınmadığı halda məmur yaxınlarının media rəhbərlərinə qarşı şikayətlərinin dərhal icraata götürülməsidir".

❑ **Aygün MURADXANLI**

# Zamin Hacının facebook statusu və iki sabiq nazirin cavabı

**Elçibəy hakimiyyətinin devrilməsindən 21 il ötsə də, həmin dövrdə baş verən hadisələr fonunda yaranan fikirlər hələ də birmənalı deyil. Çoxları milli hakimiyyətin qiyam yolu ilə devrilməsinə şübhə ilə yanaşaraq, Elçibəy iqtidarının bəzi rəhbərlər tərəfindən qiyamçılara təhvil verildiyini iddia edirlər.**

Son olaraq "Yeni Müsavat" qəzetinin köşə yazarı **Zamin Hacının** facebookda yazdığı status dediklərimizə əyani sübutdur. O, belə bir status paylaşıb: "Bakını 1993-cü ildə Surət Hüseynova və Heydər Əliyevə təhvil verənlərin, Bakının 1918-ci ildə azad edilməsinin ildönümünü qeyd etmələri də bir başqa karikaturadır".

Tanınmış jurnalistin bu fikirləri ilə bağlı Elçibəy hakimiyyəti dövründə yüksək vəzifə tutmuş bəzi şəxslərin münasibətini öyrəndik.





**İsgəndər Həmidov:** "Hakimiyyət təhvil verilmədi, qəsb edildi"

**Sülhəddin Əkbər:** "Məlumatı olmayan adamlar o dövr haqda danışmasınlar"

**Həmin dövrdə daxili işlər naziri vəzifəsində çalışmış İsgəndər Həmidov bu fikirlərlə razılaşmadığını bildirdi:** "Zamin Hacı köşə yazarıdır. Onun yazılarını məmnuniyyətlə oxuyuram. Elçibəy hakimiyyəti devrilən zaman vəzifədə deyildim. Amma onu deyim ki, hakimiyyət təhvil verilmədi, qəsb edildi. O zaman hakimiyyətdə olanlar dost, qardaşlarım idi. Heç vaxt güman etmərəm ki, Əbülfəz Elçibəy, İsa Qəmbər və Pənah Hüseyn hakimiyyəti təhvil versinlər. Rəhmətlik Ə.Elçibəyin gözəl bir kəlamı var. O deyirdi: "Min dənə kürsü, bir göz yaşına dəyməz". O, xalqı qırğına vermədi. Elçibəy və Ayaz Mütəllimov belə böyüklük etdilər. Vəzifə hərisliyi olsaydı, hakimiyyətdə qalardı. Zamin Hacını mən həyatım qədər çox istəyirəm. Onun qələmi, düşüncəsi, ağlı, zəkası böyük hörmətə layiqdir. Amma heç kəs hakimiyyəti təhvil vermədi. Sadəcə, Rusiyanın əli ilə dövlət çevrilişi edildi. O zaman da demişəm, indi də deyirəm ki, Surət Hüseynovun əli ilə Heydər Əliyev hakimiyyətə gəlib. Sadəcə, iqtidarda olan dost, qardaşlarım qırğına, qan tökməyə getmədilər. Kiminsə uşağını atasız, anasını övladsız qoymamaq üçün kənara çəkildilər. Bu proses 1992-ci ildə Ayaz Mütəllibovun da vaxtında oldu. Elçibəy, İsa Qəmbər və A.Mütəllibov kürsü üçün qan tökülməsinə razı olmadılar".

**Elçibəy iqtidarı dövründə milli təhlükəsizlik nazirinin müavini, hazırda Azad Demokratlar Partiyasının sədri olan Sülhəddin Əkbər cəmiyyətdə bu cür rəylərin formalaşmasına normal baxdığını qeyd etdi:** "Təbii ki, o dövrdə hakimiyyətin qorunub saxlanılmaması ictimai rəydə dərin izlər buraxıb. Bu hal uzun müddət davam edəcək. Bu baxımdan cəmiyyətdə müxtəlif fikirlərin yaranmasına normal baxıram. Ümumiyyətlə, heç bir hakimiyyət gücü yetərsə, postu digər qüvvələrə verməz. Həmin dövrdə ölkəmizdə olan vəziyyət, xarici müdaxilələr, eləcə də bəzi subyektiv səbəblər buna şərait yaratdı. Azərbaycanın xaricdən heç bir dəstəyi yox idi. Hətta dost olan ölkələr belə hakimiyyətin dəyişməsində maraqlı idilər. Neft uğrunda mübarizə aparan qüvvələrin də rolu var. Həmin dövrdə yeni qurulan dövlət həm müstəqilliyini möhkəmləndirməyə çalışırdı, həm islahatlar aparırdı, həm də daxildə hərc-mərclik yaradan qüvvələrlə mübarizədə idi. Ağır şərtlərdə hakimiyyət fəaliyyət göstərirdi. Və nəticəsi də bəllidir. Milli hakimiyyətin apardığı prinsipial siyasətin nəticəsi idi ki, bu qədər qüvvə vahid cəbhədə birləşmişdi. Hesab edirdilər ki, milli hakimiyyət daha bir il mövcudluğunu qorusa, devirmək çətin olacaq".

**Sülhəddin Əkbər bu cür fikirlərin yaranmasının həmin dövrlə bağlı olan məlumatsızlıqdan irəli gəldiyini də qeyd etdi:** "Ola bilsin ki, həmin dövrün vəziyyəti ilə bağlı kifayət qədər məlumata malik olmasınlar. Gərək məlumatı olan şəxslər olsun. Analiz etmək imkanları olsun. Ötəri baxıb qiymətləndirmək olmaz".

❑ **Cavanşir ABBASLI**

# "Gözü ilə görməyə gələn"



**Xalid KAZIMLI**

**Jirinovski Bakıya gəlməyə hazırlaşırmış. Xoşbəxtlikdən, "hansı Jiirnovski" sualına ehtiyac yoxdur. Dünyada bircə Jirinovski var və o, 25 ildir ki, postsovet məkanının, Avropanın tanıdığı, adı dillər əzbəri olan bir persona(j)dır.**

Onun ölkəmizdə geniş tanınmasının iki səbəbi var. Birincisi odur ki, Jirinovski hələ sovet dönəmindən başlayaraq qalmaqallarıyla, avantürist çıxışlarıyla, dava-dalaşlarıyla, irqi, milli, dini ədavət qızışdıran fikirləriylə hər yanda məşhurdur.

Vladimir Volfoviçin ölkəmizdə məşhur olmasının ikinci səbəbi odur ki, dəfələrlə onun şovinist çıxışlarının hədəfi ölkəmiz, xalqımız olub.

Ümumiyyətlə, vaxtilə diplomat sifətilə Türkiyədə işləyən, türk dilini bilən Jirinovski qatı türkofob *(türklərə nifrət edən)* olaraq qalmır, o, bir slavyan şovinisti kimi, bütün xalqlara qarşıdır, hesab edir ki, Rusiyanın yaxın ətrafındakı xalqlar onun əsarəti altında olmalıdırlar və bu normaldır.

13-14 il öncə o, Azərbaycan xalqı haqqında təhqiramiz ifadə işlətmişdi, sonradan üstünə gediləndə dandı. Bir neçə il öncə də bənzər hadisə baş verdi: Jirinovski xalqımızın, Azərbaycan dövlətinin ünvanına artıq-əskik danışmışdı, Moskvada yaşayan diaspor nümayəndələrimiz onu məhkəməyə vermək təşəbbüsü qaldırdıqdan sonra Volfoviç yenə də geri çəkildi, valı dəyişdi.

Dəfələrlə olub ki, Azərbaycan parlamentində RLDP liderinin ölkəmizə aid dilə gətirdiyi ifadələr, yaxud ermənilərə qahmar çıxaraq, Qarabağın anneksiyasına tərəfdar olduğunu deməsi müzakirə olunub, Rusiya Dövlət Dumasına onun barəsində şikayət göndərilib. Hətta bir ara onun "arzuolunmaz şəxs" elan edilməsi, ölkəmizin ərazisinə buraxılmamasına dair də yüksək səviyyədə müzakirələr gedirdi.

İndi belə bir adam Azərbaycana gəlir və dövlətin inhisarındakı informasiya agentlikləri onun gəlişinə dair xəbərin başlığını bu cür verirlər: "Vladimir Jirinovski Azərbaycandakı inkişafı gözləri ilə görmək üçün səfərə gəlir".

Deməli, "gözləri ilə görməyə gəlir", qulağı ilə eşitdikləri kifayət deyil.

Jirinovskinin siyasi xəttində baş verən bu dəyişiklik bir neçə aydır ki, müşahidə olunur. Əgər o, Azərbaycana dair açıqlamalarında səmimidirsə, bu, o deməkdir ki, Volfoviçdə az qala mutasiya dəyişkənliyi baş verib. Yox, o, dilinin altına çöp qoyub danışırsa, bizə diplomatik kəf gəlməyə çalışırsa (böyük ehtimalla belədir ki, var), onda bizə bu cür "gözü ilə görən" lazım deyil.

Bu adam Kremldə planlaşdırılan niyyətlərin "müjdəçi qaranquş"udur. Hələ on il öncə Ukraynada Viktor Yuşşenko başda olmaqla "narıncı inqilab" komandası hakimiyyətə gələndə ilk olaraq məhz Jirinovski Ukraynanın iki hissəyə - Şərqi Ukraynaya və Qərbi Ukraynaya parçalanacağını anons etmişdi. Krımın Rusiyaya birləşdirilməli olduğunu ilk deyənlərdən biri Jirinovskiydi və o, mitinqlərdə, parlamentdə, televiziya studiyalarında çığıra-çığıra Rusiya dövlətini bu istiqamətdə fəaliyyətə başlamağa çağırırdı.

Hazırda Azərbaycandakı inkişafı öyən, mövcud hakimiyyətə təriflər yağdıran, "inkişafı öz gözləri ilə görmək üçün ölkəyə gəlməyə hazırlaşan", bax, bu adamdır.

Söz yox, onun gedəcək başqa bir yeri də yoxdur. Avropa dövlətləri başqa irticaçı rus siyasətçiləri ilə bərabər Jirinovskinin adını da qara siyahıya salıb, "arzuolunmaz şəxs" elan edib, sanksiyaya məruz qoyub. Ukrayna və Gürcüstan üçün Jirinovski adlı siyasətçi çoxdan yoxdur. Baltikyanı ölkələrə də üzükə bilməz. Yerdə qalır Ermənistan və Azərbaycan. İndiyədək dəfələrlə Ermənistanda olan və özünü katolikosdan artıq erməni kimi aparan Volfoviç bu dəfə ölkəmizi "fəth" etməyə gələcək.

Əslində, onun bu səfəri proqnozlaşdırılırdı. Bir neçə ay öncə o, ilk dəfə Azərbaycana dair tərifli sözlər danışanda belə bir fikir səsləndirildi ki, gün gələcək, Jirinovski ölkəmizə gələrək qonorarını, ənamını almağa çalışacaq.

Yəqin ki, RLDP sədrinin səfəri təkcə "inkişafı gözü ilə görmək" deyil, həm də keysini doldurub getməkdir. Bu işlərdə hökumətimizin nə qədər səxavətli olması dünyaya

YENİ MÜSAVAT
N 231 (5940) 16 sentyabr 2014



# Xarici QHT-lərin fəaliyyəti ilə bağlı qaydalar sərtləşdirilir

**Azərbaycanda xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının nümayəndəliklərinin, yaxud filiallarının fəaliyyəti ilə bağlı qaydalar sərtləşdirilir. Lent.az-ın məlumatına görə, Milli Məclisdən "Trend"ə bildiriblər ki, bununla bağlı "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Qanuna bir sıra əlavələr edilir.**

Əlavə edilən 4.2-1-ci maddədə göstərilir ki, istənilən xarici qeyri-hökumət təşkilatının Azərbaycanda yalnız bir nümayəndəliyinin və yaxud filialının açılmasına icazə veriləcək.

Qanuna yenə əlavə olunan 6.1.1-1-ci maddədə deyilir ki, Azərbaycanda fəaliyyət göstərən xarici qeyri-hökumət təşkilatının nümayəndəliyi və yaxud filialı yerli müvafiq icra orqanına təqdim etdiyi əsasnaməsində öz hüquqi ünvanını fəaliyyətinin predmeti və ona rəhbərlik edəcək şəxsin səlahiyyətlərini də göstərməlidir.

Qanuna yeni əlavə olunan 6.1.5-ci maddəyə görə, Azərbaycanda fəaliyyət göstərən xarici dövlətin qeyri-hökumət təşkilatının nümayəndəliyi və yaxud filialı müvafiq icra hakimiyyəti orqanına təqdim etdiyi sənədlər arasında ona rəhbərlik edəcək şəxsin səlahiyyət müddətini də göstərməlidir.

Qanuna əlavə edilən 6.1.6-cı maddədə göstərilir ki, Azərbaycanda fəaliyyət göstərən xarici dövlətin qeyri-hökumət təşkilatının nümayəndəliyinin və yaxud filialının rəhbəri öz müavininin təyin edilməsi barədə sənədi də müvafiq icra orqanına təqdim etməlidir. Bu sənəddə müavin barədə ətraflı məlumat göstərilməlidir.

Qanuna əlavə edilən 12.8.3-1-ci maddədə deyilir ki, Azərbaycanda fəaliyyət göstərən xarici dövlətin qeyri-hökumət təşkilatının nümayəndəliyi və yaxud filialı ona verilmiş tapşırıqlar, göstərişlər və onların icrası barədə, habelə fəaliyyətinin dayandırılması, yaxud bərpa edilməsi, o cümlədən ləğv edilibsə, təşkilatın əmlak məsələləri barədə məlumatları da yerli müvafiq icra orqanına təqdim etməlidir.

# Artur Rasizadənin atasının Krımdakı məzarı axtarılır



Artur Rasizadə

**Azərbaycanın baş naziri Artur Rasizadənin atasının Krımdakı məzarının axtarışlarına başlanıb. Virtualaz.org saytı xəbər verir ki, bunu vesti.az-a Krımdakı Azərbaycan icmasının rəhbəri Rəhim Hümmətov deyib.**

R.Hümmətovun sözlərinə görə, kiçik leytenant Tahir Məmməd oğlu Rasizadə Krım cəbhəsində döyüşüb, bölük (rota) komandiri olub. O, 1942-ci ilin fevralında gedən şiddətli döyüşlər zamanı itkin düşüb: "Həmin döyüşlər zamanı sovet ordusunun 89 min döyüşçüsü həlak olub, çoxu əsir düşüb. Yerli sakinlər döyüşlərdən sonra meyitləri alman komandanlığının əmri ilə xəndəklərdə kütləvi şəkildə dəfn edib. Kütləvi məzarlıqlar Kirov rayonunun Vladislavovka və Novomixaylovka kəndlərinin ərazisindədir. O zamankı mürəkkəb vəziyyət əksər döyüşçülərin taleyinin necə olduğunu dəqiqləşdirməyə imkan vermir. Onların çoxu hələ də itkin düşmüş sayılır. Frontovoye su anbarının yaxınlığında minlərlə sovet əsgər və zabiti dəfn olunub, amma onların heç birinin adı dəqiqləşdirilməyib

Təəssüf ki, bizim döyüşlərdə qəhrəmanlıqla həlak olan Tahir Rasizadənin məzarının axtarışına kömək etmək xahişinin müqabilində göstərdiyimiz səylər hələlik nəticəsiz qalıb. Amma ümid edirik ki, Tahir Rasizadənin məzarının yeri gec-tez bilinəcək".

# Milli Şurada nə baş verir?

## KXCP qurumun son sessiyasına qatılmadı; yeni üzvlər kimlərdir?

**Sentyabrın 14-də Milli Şuranın sessiyası keçirilib. Qurumun mətbuat xidmətindən verilən xəbərə görə, sessiyanın gündəliyində iki məsələ olub-Milli Şuraya üzv olmaq istəyənlərin müraciətlərinə baxılması və ölkədə hazırkı ictimai-siyasi durumum müzakirəsi.**

**Milli Şuranın sədri Cəmil Həsənli çıxış edərək qurumun tərkibi barədə məlumat verib. Bildirib ki, Milli Şuranın hazırda 75 nəfər üzvü var, amma onlardan xaricdə və həbsdə olanlar var:** "Çox təəssüf ki, Milli Şuranın ötən sessiyasından bu günə qədər keçən müddətdə hər ikisində də artım olub-həm həbs olunan, həm də xaricə getmək məcburiyyətində qalan üzvlərimizin sayında. Son repressiya dalğasında daha iki üzvümüz-Milli Şuranın Koordinasiya Mərkəzinin üzvü Leyla Yunus və Seymur Həzi həbs olundu. Bununla da Milli Şura üzvü olan siyasi məhbusların sayı 9-a çatıb".

Cəmil Həsənli sessiya iştirakçılarının diqqətinə çatdırıb ki, sessiyada Milli Şuranın 38 nəfər üzvü iştirak edir. Kvorum 31 nəfər olduğu üçün bu, sessiyanın keçirilməsinə mane olmayıb.

Milli Şuraya üzv olmaq istəyənlərlə bağlı məsələ ayrı-ayrılıqda səsə qoyulub. 8 nəfərin-hüquq müdafiəçisi Məlahət Nəsibova, iqtisadçı ekspert Vahid Məhərrəmov, "Azadlıq" qəzetinin baş redaktoru və "Azərbaycan saatı" proqramının rəhbəri Qənimət Zahid, Azərbaycan ordusunun keçmiş zabiti, mühacirətdə olan polkovnik İsa Sadıqov, tanınmış vəkil Fəxrəddin Mehdiyev, iqtisadçı Məhəmməd Talıblı, Ukraynada diaspor fəalı Yalçın Qəhrəmanlı və yazıçı-tərcüməçi Araz Gündüzün müraciətinə müsbət cavab verilib və onlar Milli Şura üzvü seçiliblər.



**Cəmil Həsənli daha sonra ölkədə hazırkı ictimai-siyasi vəziyyətlə bağlı fikirlərini bölüşüb. Milli Şura sədri 2013-cü ilin prezident seçkiləri dövründə irəli sürülən bir tezisi yada salıb:** "Bu tezis ondan ibarət idi ki, əgər hakimiyyət seçkiləri saxtalaşdırmağa nail olsa, ölkədə repressiyalar gücləndiriləcək. O vaxt deyirdik ki, avtoritarizmdən diktaturaya keçid mərhələsini yaşayırıq. Ya Azərbaycan cəmiyyəti bütövlükdə öz taleyini müəyyən edib bunun qarşısını almalıdır, ya da diktaturaya keçid baş tutacaq. Təəssüf ki, ikincisi baş verdi".

Sessiyada Milli Şuranın üzvlərindən Əli Kərimli, İbrahim İbrahimli və digərləri ölkədəki son həbslərə etiraz tonunda çıxış ediblər.

Modern.az-ın "xaricdə yaşayan bu şəxslərin quruma üzv olmaları Milli Şuranın fəaliyyətinə nə dərəcədə effektiv təsir edə bilər" sualına cavab verən verən Milli Şuranın ictimaiyyətlə əlaqələr komissiyasının sədri, **"Turan" İnformasiya Agentliyinin direktoru Mehman Əliyev** bildirib ki, effektivlik adıçəkilən şəxslərin fəaliyyətindən asılı olan məsələdir. "Bu, onların Milli Şuranın işindəki fəaliyyətindən, aktivliyindən asılıdır".

**M.Əliyevin fikrincə, İsa Sadıqov və Qənimət Zahidin üzv qəbul olunmaları Milli Şuranın fəaliyyətinə müsbət təsir göstərəcək. O, Milli Şuranın komissiyalarının ləğv edilib-edilməməsi ilə bağlı fikirlərini də bölüşüb. M. Əliyev deyib ki, komissiyaların fəaliyyətini dayandırması gündəmdə deyil:** "Komissiyalar prezident seçkisində özünün effektivliyini göstərdi. Çox məhdud resurslarla həmin komissiyaların işi kifayət qədər yüksək nəticələr verdi. Hakimiyyətdən olan mütəxəssislər də mənimlə söhbətlərində bunu qeyd edirlər. Komissiyalar bundan da yaxşı işləyə bilərdi. Milli Şuraya hakimiyyətin təzyiqləri, qurumda istefaların olması buna təsir etdi. Ona görə də aktiv şəkildə fəaliyyət göstərmək çətinləşir. Amma komissiyaların fəaliyyəti gələcək proseslərdə çox vacib və effektiv olacaq".

Diqqəti cəlb edən məqamlardan biri KXCP sədri Mirmahmud Mirəlioğlunun, müavini Xəzər Teyyublunun və Ali Məclis sədri Bəybala Əbilin sessiyaya qatılmamaları olub.

X.Teyyublu və B.Əbil APA-ya açıqlamalarında sessiyada iştirak etməmələrinin səbəbini Bakıdan kənarda olmaları ilə əsaslandırıblar.

**M.Mirəlioğlu isə bu barədə danışmaq istəməyib.**

❑ **E.SEYİDAĞA**

# Deputatdan MSK sədrinə sərt ittihamlar

## İlyas İsmayılov: "Başa düşə bilmirəm ki, MSK və onun sədri Məzahir Pənahovun hoqqalarına nə üçün "dözümlülük" göstərilir"

**Milli Məclisin deputatı, Ədalət Partiyasının sədri İlyas İsmayılov bir müddət əvvəl deputat mandatı daşıyan ali məktəb rektorları və icra strukturlarında çalışan digər şəxslərlə bağlı prezident İlham Əliyevə müraciət etmişdi.**

İ.İsmayılov MSK-ya məktub göndərmiş və qeyd etmişdi ki, konstitusiyanın müvafiq maddəsinə görə, icra və məhkəmə sistemlərində qulluq edən, elmi, pedaqoji və yaradıcılıq fəaliyyəti istisna olmaqla, başqa ödənişli fəaliyyətlə məşğul olan şəxslər deputat seçilə bilməzlər.

Virtualaz.org saytının əməkdaşının bu mövzuda suallarına cavab verən deputat MSK sədrini yenə sərt tənqid edib. "MSK sədri Məzahir Pənahova üç dəfə yazılı müraciət edərək konstitusiyanın 85-ci və Seçki Məcəlləsinin 173-cü maddələrinə zidd olaraq universitet rektorlarının, açıq səhmdar cəmiyyətləri, dövlət şirkətləri rəhbərlərinin, sahibkarlıq, kommersiya və başqa ödənişli fəaliyyətlə məşğul olan şəxslərin məhz onun "səhvi" üzündən deputat mandatına yiyələnmələrini diqqətinə çatdırmış, həmin şəxslərin ya deputat mandatından məhrum edilmələri, ya da tutduqları vəzifədən qeyd-şərtsiz azad olunmaları üçün tədbir görməsini xahiş etmişdim. Amma MSK məktubumla bağlı nəinki tədbir görmədi, heç mənə cavab da vermədi.



İlyas İsmayılov



Məzahir Pənahov

Məhkəməyə müraciət etməli oldum. MSK məhkəməni də saymadı, onun iki iclasına gəlmədi. Üçüncü dəfə məhkəməyə bildirdi ki, guya mənim məktublarımı almayıblar. Mən sədrə "nə üçün mənim məktubuma cavab vermirsiniz" deyəndə bildirib ki, "sizin təkliflərinizi, Allah qoysa, 2015-ci ildə nəzərə alarıq". Komissiyanın katibi Mikayıl Rəhimova zəng edəndə isə o dedi ki, "səhv etmişik, gərək mandatları verməzdən əvvəl onların işdən çıxmaları haqda sənəd alaydıq".

Doğrusu, adam bilmir ki, MSK-nın bu hərəkətlərinə, yalanlarına nə desin. Onu da başa düşə bilmirəm ki, MSK və onun sədri Məzahir Pənahovun sözün əsl mənasında hoqqalarına nə üçün "dözümlülük" göstərilir?! Qanunu pozan, öz səhvini bilib etiraf etməyi bacarmayan bu insanı nə üçün müdafiə edirlər?" deyə, deputat bildirib.

**Deputat deyib ki, onun Konstitusiya Məhkəməsinə və Milli Məclis sədrinə müraciətlərinə də cavab verilməyib deyən İ.İsmayılov "sizə elə gəlmirmi ki, bütün bu "soyuqluğun" kökündə spikerlə məlum mübahisəniz durur" sualına belə cavab verib:** "Güman etmirəm. O bir epizod idi, oldu getdi. Görünür, sonradan həmin mübahisəyə görə özləri də peşman oldular. Ən azı parlamentin o iclasının rəsmi stenoqramını dəyişmələri belə düşünməyə əsas verir".

YENİ MÜSAVAT
N 231 (5940) 16 sentyabr 2014





# Ümid funksionerləri Lənkəran, Masallı və Sumqayıtda görüş keçirib

**Sentyabrın 13-də Ümid Partiyası sədrinin birinci müavini Ənvər Ağazadə, sədrin təşkilati məsələlər üzrə müavini Bakir Həsənbəyli, sədrin İnformasiya və mətbuat üzrə müavini Elman Abbasov Lənkəranda və Masallıda, sentyabrın 14-də isə Sumqayıt şəhərində partiya fəalları və bələdiyyə seçkilərində namizəd olacaq partiya üzvləri ilə görüşüblər.**

Sumqayıtda keçirilən görüşdə Ümid Partiyası sədrinin müavini, eyni zamanda Naxçıvan MR təşkilatının sədri Faiq Əliyev də iştirak edib. Partiya funksionerləri bələdiyyələrin statusu , Seçki Məcəlləsi, partiyanın seçkilərə qatılmasının əhəmiyyəti və səbəbləri ilə bağlı məruzə ilə çıxış ediblər, iştirakçıları maraqlandıran sualları cavablandırıblar, seçkilərə hazırlıqla bağlı tapşırıq və tövsiyələrini veriblər. Şöbə sədrləri qarşılaşdıqları problem və çətinliklərlə bağlı partiya funksionerlərini məlumatlandırıblar.

Sumqayıtda şəhərində keçirilən görüş zamanı 10 nəfər gənc Ümid Partiyasına üzv qəbul olunub.

Bələdiyyə seçkilərinə hazırlıqla bağlı Ümid Partiyası funksionerlərinin bölgələrə səfərləri davam edir.













YENİ MÜSAVAT
N 231 (5940) 16 sentyabr 2014



# Analoqu olmayan mehribançılıq

Zamin HACI
zaminhaci@gmail.com

(“Hərəyə bir bıçaq soxaq!” vətəndaş aksiyasından doğan düşüncələr)

**Xalqımızın, iqtisadiyyatımızın analoqu olmayan şəkildə inkişafı ilk növbədə davranışlarda özünü göstərir. Son çağlar vətəndaşlarımız sözün əsl mənasında yerlə-göylə əlləşirlər.**

Misal üçün, təzəlikcə azı 2 təyyarədə dava salmağı bacarmışıq. Bunlardan birində azərbaycanlı qaqaş Dubaydan Moskvaya uçan təyyarəni birbaşa İrəvana endirmişdi. İkinci hadisə isə Həştərxan üzərində olub. Moskvadan Qəbələyə uçan təyyarədə sərnişin stüardessa ilə münaqişə edib, məcburən uçağı endiriblər.

Düzdür, ikinci halda əslən soydaşımız olan Rusiya vətəndaşından söhbət gedirdi, ancaq nə dəxli? Əsas odur soy-kökü bizdəndir, fəxrimizdir, qürur yerimizdir. Hərəmiz bir təyyarə endirsək Qarabağ harayımız hər yana yayılar, o cümlədən, dünyada ən uzun ikinci bulvarın Bakıda qayırıldığını hamı bilər.

Hər cür üsullarla, bütün mümkün vasitələrlə dava eləyirik. Başqa iki misala baxaq.

Sentyabrın 8-də Cəlilabadın Göytəpə yaşayış məntəqəsində bir nəfər dükanın qabağını sulayırmış. Suyu atdığı yerdə maşın keçib, su açıq pəncərədən sürücünü isladıb. Sürücü düşüb deyib ki, ayə, nə olsun su həyat mənbəyi olaraq qalır, bu nə hərəkətdir? Dükançı da deyib, su aydınlıqdır. Bundan sonra süpürləşiblər, dükançı sürücünü bıçaqla dəlmədeşik edib.

12 sentyabrda Göygöl rayonunda baş verən bıçaqlaşma isə öz mənasına görə hətta “Oazis”dəki bıçaqlaşan yoldaşlara da örnək olmağa layiqdir. Orada bir qaqaş qıza telefonda mesaj yazıb, qızın qardaşı da gəlib bunu bıçaqlayıb ki, sən mənim bacımı niyə sevirsən, onu özüm alacam.

Zarafat edirəm, ikinci hissə olmayıb. Sadəcə, qeyrətli qardaş bacısına mesaj göndərən telefon şirkətini havaya uçurtmalıdır. Mən bunu özümdən yazmıram, bənzər hallar dəfələrlə tərəfimizdən qeydə alınmışdır. Telefon şirkətləri camaatımız arasında ailə-məişət münaqişələrini şiddətləndirmək üçün əllərindən gələni edirlər. Bir dəfə “Azercell” şirkəti 14 fevral Sevgililər Günü münasibətiylə pulsuz təbrik mesajı aksiyası keçirtmişdi. Sonra rəqəmləri açıqladılar: 25 min abunəçi 55 min mesaj göndərib. Mən də o zaman yazdım ki, “Azercell” zəhmətkeşlərimizi xəyanətdə yaxalayıbdır, çünki hər bir abunəçi ancaq 1 sevgilisinə mesaj göndərsə ümumi mesaj sayı 25 min olmalı idi, 55 min rəqəmi göstərir ki, bir çoxlarının 2-3 sevgilisi vardır. Şirkət də mənə cavab yazdı ki, sən həyatda aşiq olmamısan, belə zadları anlamırsan, əslində bunun içində Vətənə, Şahdağa, Göygölə məhəbbət də gedir. Guya camaat oturub Mil düzünə sevgi mesajı yazırmış.

Hər halda, yaxşı qurtardıq, şirkət adamı bıçaqlaya da bilərdi.

Dava, bıçaqlaşma, kütləvi süpürləşmələrin artması bir tərəfdən iqtisadi yüksəlişimizi, dövlət siyasətindəki səmimiliyi, mentalitetin, ağbirçək və ağsaqqal, yeznə və yengə, baldız və bacanaq institutlarının rolunun artmasını göstərirsə, digər tərəfdən nisgilli qəlbimizdə işğal edilən torpaqlarımızın azad olunmasına ümid yaradır. Bəs necə, bu gün bıçaqlaşan hər bir gənc sabahın cəsur əsgəridir! İndi bacısına mesaj yazmağı önləyən oğlan sabah BMT kürsüsündən ölkəmizə qarşı 907-ci maddəni ləğv edər! Şeytan detallardadır, xırda işlərdən böyük əməllər törənir. Körpü yolun bir hissəsidir.

Hadisələrin statistikası da müqayisə aparmağa, fərqlənən rayonları seçməyə, gələcəkdə mükafatlandırmağa imkan verir. Məsələn, əgər Binəqədidə kütləvi davada 7 nəfər iştirak edib 3 nəfər xəsarət alırsa, Hövsanda-kı davada 11 iştirakçıdan 5-i yüngül, 4-ü ağır bədən xəsarətləri almışdır, ötən ilin müvafiq dövrünə nisbətdə polis hadisə yerinə gələndə 2 meyit aşkar edilib götürülmüşdür! Sumqayıtdakı davada saxlanılan vətəndaş sayı Masallıdakı süpürləşməyə nisbətdə az olmuşdur.

Prezidentin ehtiyat fondundan park təmirinə pul ayıranda bu amillərin hər biri nəzərə alınmalıdır. Yoxsa sən milyonları al, parkı remont elə, lakin illərlə orda bir kəsin burnu qanamasın, parkın sinəsi hərbə meydan olmasın, minlərlə can qurban olmasın - nəyə lazımdır?

İndi söz əlaqədar təşkilat və müəssisələrindir.

---

# Müxalifət 2005 seçkilərində “siyasi bazarlığı” dartışır

## “Azadlıq” blokuna 35 deputat yeri təklif edilibmi?




**ADP sədri Sərdar Cəlaloğlu “Yeni Müsavat”a açıqlamasında bildirib ki, 2005-ci il parlament seçkilərində Müsavat, AXCP və ADP-nin təmsil olunduğu “Azadlıq” blokunun rəhbərlərinə beynəlxalq birlik tərəfindən parlamentdə 35 deputat yeri ilə razılaşmaq təklifi edilib. Lakin AXCP sədri Əli Kərimli bu təklifə qarşı kəskin mövqe qoyub, nəticədə müxalifət parlamentdə fraksiya yaratmaq imkanını əldən verib:**

“Qərb istəyirdi ki, əvvəlcə müxalifət parlamentdə fraksiya şəklində təmsil olunsun, Azərbaycanda bir siyasi mədəniyyət formalaşsın, iqtidar-müxalifət münasibətləri küçələrdə yox parlament divarları arasında çözülsün və beləliklə də Azərbaycanda qansız-qadasız, tədrici demokratik dəyişikliklər, islahatlar reallaşsın. ATƏT-in müşahidə missiyasının rəhbəri bizə təklif eləmişdi ki, 35 nəfər müxalifətdən, 35 nəfər hakimiyyət partiyasından deputat parlamentdə təmsil olunsun, qalan 55 deputat yerinə isə kim istəyir namizədliyini irəli sürsün və seçki mübarizəsi ilə həmin yerlərin sahibləri müəyyənləşsin. Bu təklif bizə veriləndə Əli Kərimli dedi ki, biz qəbul etmirik, çünki biz ən azı 70 deputat yerini əldə edəcəyik. Təklifi irəli sürən tərəf bundan sonra dedi ki, öz işinizdir, gedin əldə edə bilirsinizsə edin. Nəticə isə bəllidir-2005-ci il parlament seçkilərində müxalifətdən 4-5 nəfər parlamentə düşə bildi. Qərblilərin təklif etdiyi variant Azərbaycanda tədrici dəyişikliklər üçün normal variant idi. Əli Kərimli bu variantın ölkədə reallaşdırılmasına imkan vermədi. Müsavat Partiyasının başqanı İsa Qəmbər isə qaraguruh dəstənin hücumlarından, ittihamlarından, şərləmələrindən ehtiyatlanıb Əli Kərimlinin mövqeyi əleyhinə getmədi. Beləliklə, faktiki olaraq müxalifət fazalı demokratiyadan imtina elədi. Qərb bundan sonra müxalifətdən, belə demək mümkündürsə, əlini üzdü. Ona görə ki, Qərb Azərbaycanda kataklizmlərin, qanlı-qadalı inqilabların, radikal dəyişikliklərin əleyhinədir. Onlar bu ölkədə tədrici demokratik dəyişikliklərin başlanğıcını 2005-ci ildə müxalifətin parlamentdə fraksiya yaradacaq həddə təmsilçiliyini reallaşdırmaqla qoymaq istəyirdilər”.

**Qeyd olunanlarla bağlı dəqiqləşmə aparmaq üçün İsa Qəmbər və Əli Kərimlinin mövqeyini öyrənmək mümkün olmadı. 2005-ci il parlament seçkilərində “Azadlıq” blokunun seçki qərargahının rəhbəri olmuş AXP sədri Pənah Hüseynlə danışdıq. P.Hüseyn bildirdi ki, o dövrdə ona hər hansı bir formada bu tipli informasiya məlum olmayıb. Onun iştirak elədiyi tədbirlərdə, müzakirələrdə bu mövzuda hər hansı bir informasiya, təklif dinlənilməyib, müzakirə edilməyib:** “Lakin bu cür informasiyalar, söhbətlər seçkilərdən sonra ortaya çıxmağa başlamışdı. Əsas etibarilə iqtidar dairələrindən sızan məlumatlar idi. Sərdar Cəlaloğlu ”Azadlıq” blokunun əsas siyasi rəhbərlərindən biri olub. Əgər onunla və ya digərləri ilə müzakirələrdə, görüşlərdə müxalifətə hansısa sayda deputat yeri təklifi məsələsi olubsa, mən bu barədə dəqiq nəsə deyə bilmərəm. Bu barədə Sərdar bəy özü danışa bilər. Əvvəllər yayılan informasiyalarda daha çox ABŞ səfirinin müxalifətlə sözügedən mövzuda danışdığı, təklif verdiyi deyilirdi. İndi isə Sərdar bəyin açıqlamasında ATƏT-in seçkiləri müşahidə missiyasının rəhbərinin müxalifətə təklif verdiyindən söz açılır. Bu cür informasiyalar yayıldığı zamanlarda Müsavat Partiyasının başqanı İsa Qəmbər də təkzib xarakterli fikirlər səsləndirib. Bu məsələyə, ümumiyyətlə, rəy bildirib ötüb keçmək olardı. Lakin bu, yanlış təəssürat yarada bilər ki, Azərbaycanda müxalifətin parlamentdə təmsil olunması kimi məsələlər xaricilərlə müzakirə edilir”.



**Pənah Hüseyn: “Müxalifətdən 50 nəfərin deputat seçildiyini sübuta yetirən sənədlər var”**

**P.Hüseyn dedi ki, parlamentdə müxalifət fraksiyasının yaradılması üçün seçkilərin azad və ədalətli keçirilməsi kifayət idi. Hətta çox qeyri-bərabər şəkildə keçirilən seçkilərdə və seçkiyə ciddi təsir eləyən basqıların olduğu bir vaxtda 2005-ci ildə “Azadlıq” blokunun seçki qərargahına müxalifətdən 50 nəfərin deputat seçildiyini sübuta yetirən sənədlər daxil olmuşdu:** “Əldə olunan real sənədlərə əsasən, bunu əminliklə söyləyirəm. Protokollar sübut edirdi ki, müxalifətdən bu qədər namizəd seçilib. Əslində qalib gələnlərin sayı daha çox idi. Elə dairələr var idi ki, orada müxalifət namizədlərinin qələbəsi şəksiz idi, sadəcə olaraq, həmin dairələrdən real sənədlər əldə etmək mümkün olmamışdı. Ona görə də azad, ədalətli seçki tələbinə əslində müxalifətin parlamentdə fraksiya yaratması məsələsi kimi baxıla bilərdi. Açığı, mən razılaşdırma yolu ilə fraksiyanın yaradılması və bu yolla ölkədə tədrici demokratiyanın formalaşması kimi məsələlərə bir qədər spektik yanaşıram. Baxmayaraq ki, buna müsbət nümunə kimi bir çox hallarda 1990-cı ildə Ali Sovetə müxalifəti təmsil eləyən 25 nəfərin seçilməsini və həmin demblok adlanan 25 nəfərin parlamentdəki fəaliyyətini göstərirlər. Nəzərə alınmalıdır ki, demblokun məlum fəaliyyəti ölkədəki ümumi siyasi vəziyyətlə bağlı idi, AXC-nin, xalq hərəkatının fəaliyyəti ilə əlaqəli proses gedirdi”.

**AXP sədri vurğuladı ki, siyasətdə idarə olunan demokratiya konsepsiyası anlayışı var. Yəni yuxarıdan siyasi islahatlar vasitəsilə ölkədə siyasi rejimin təkamüllə demokratikləşdirilməsi nəzərdə tutulan bir modeldir. Sərdar Cəlaloğlunun dediyi kimi məsələlər orada nəzərdə tutulur. Amma Azərbaycanda 1993-cü ildən sonra bu tipli məsələlər ola bilsin ki, müzakirə edilibsə də iqtidardakı bəzi qüvvələrin müzakirəsindən o tərəfə keçməyib, siyasi dialoq predmeti olmayıb:** “Hətta bəzilərinin dediyi kimi, siyasi bazarlıq səviyyəsinə də gəlib çatmayıb. İndiki iqtidarın apardığı siyasət bu mövzuda hətta mülahizələri də qeyri-ciddi edir. Çünki ölkədə tətbiq olunan siyasi xəttə diqqət etdikdə görünür ki, tamamilə əks mövqe götürülüb. Mən sizə Sərdar Cəlaloğlunun dediyi tərzdə olan, amma həqiqətən olmuş bir detalı xatırlatmaq istəyirəm. 2005-ci il parlament seçkilərindən sonra, 2006-cı ildə Müsavat deputat qrupunda təmsil olunmayan, hakimiyyətlə münasibətdə fərqli taktika sərgiləyən deputatlardan biri ilə bizim müzakirələrimiz olmuşdu. Həmin deputatın iqtidar dairələrinə çıxışı var idi. Mənim təşəbbüsümlə biz Müsavat deputat qrupu olaraq təklif elədik ki, müəyyən presedentlərin yaradılması üçün həmin deputatın müxalifətin təmsilçisi kimi Milli Məclisin sədr müavini olması razılaşdırılsın. Biz eyni zamanda ”Müxalifətçilik haqqında” qanun layihəsi hazırlayıb təqdim elədik. Layihədə Milli Məclis komissiyalarında müxalifətin də təmsil olunması kimi məsələləri əks elətdirdik. Lakin hakimiyyət həmin deputatın da müxalifətin adından parlament sədrinin müavini olmasına razılıq vermədi. Təqdim etdiyimiz layihə də qəbul edilmədi. Göründüyü kimi, hakimiyyət islahat xarakterli heç bir addıma getmir. Hakimiyyət tamamilə fərqli bir Azərbaycan modeli formalaşdırıb. Bunu inkişafın Azərbaycan modeli adlandırsalar da, əslində sırf antidemokratik inkişafı nəzərdə tutan modeldir. Bu modeldə demokratik islahatlar anlayışı yoxdur”.

❑ **Etibar SEYİDAĞA**

**Qərb Rusiyanı iqtisadi-maliyyə müstəvisində çökdürməyi hədəfləyib. Hər şeydən göründüyü kimi, bu kursu o, axıradək davam etdirəcək, əgər Kreml beynəlxalq hüquq prinsiplərinə, ölkələrin, ələlxüsus da postsovet və qonşu dövlətlərin ərazi bütövlüyünə sayğılı olduğunu əməldə sübut etməyincə, qlobal sülhü sarsıdan mövqeyindən geri dönməyincə.**



# Qərbin sanksiyalarının Azərbaycana ən böyük faydası

## ABŞ və Avropa Rusiyanı sıxdıqca burdakı odioz "5-ci kolon"çular da səngərlərdən sürətlə çıxır; maska taxanları isə cəmi 1-2 testdən keçirməklə asanca tanımaq olar...

Proses gedir və onun nə ilə sonuclanacağını Rusiyadakı tək-tük sayda qalmış zəkalı insanlar, politoloqlar kifayət qədər yaxşı başa düşürlər, hələ vaxt varkən Putini qorxulu yoldan çəkindirməyə səsləyirlər. Zombiləşmiş Rusiya cəmiyyəti isə nəyin baş verdiyinin düz-əməlli fərqində olmadığından gözləmə mövqeyindədir. Bir az da yalançı ejforiyadadır.

Bunlar öz yerində, adama dəhşətli şəkildə ağır gələn Azərbaycanda "Roma papasından artıq katolik olmaq istəyənlər", ayrı sözlə, yeri gəldi-gəlmədi Rusiyanın təəssübünü çəkənlərdir. Onlar "5-ci kolon"çulardır. İndiyədək müxtəlif adlar altında gizlənsələr də, son olaylardan sonra sanki vahid mərkəzdən göstəriş alıblarmış kimi açıq-aşkar boy göstərməyə başlayıblar.

Eldar İbrahimov, Rasim Ağayev, Yaqub Eyyubov -bunlar hələ üzdə olanları, tanınmışlarıdır. Gör, hələ nə qədər tanınmamışı, "daş altda yatanı" var. Ən qorxulusu odur ki, onların çoxu hakimiyyətdə, hökumətdə yüksək postlar tutur, cibində deputat mandatları gəzdirir. Yəni kütləyə təsir imkanları var. Rusiyadakı ən böyük "5-ci kolon"çu, baş nazirin sabiq 1-ci müavini Abbasov da ki, "dəf kimi" öz yerində...

Məsələn, Azərbaycanın baş nazirinin müavini (!!) Yaqub Eyyubov görün bu xüsusda hansı mövqeyin, hansı qafanın yiyəsidir və Rusiyaya Putindən də çox yanan belə birisinin Azərbaycan hökumətində ikinci adam qismində olması nə dərəcədə məntiqə, ən başlıcası milli maraqlarımıza uyğundur.

**Cənab Eyyubov deyib:** "Heç kim Rusiyanı sındıra bilməz! Rusiya elə ölkə deyil ki, onunla sanksiya dilində danışmaq mümkün olsun". Virtualaz.org-un məlumatına görə, bunu o, Azərbaycan-Rusiya Hökumətlərarası İqtisadi Əməkdaşlıq Komissiyasının Bakıda keçirilən iclasında çıxışı zamanı söyləyib. Rusiyanın NTV telekanalının xəbərinə görə, Azərbaycan baş nazirinin müavini əmin olduğunu bildirib ki, yeni sanksiyalar Rusiyanı sındıra bilməyəcək, əksinə, onu möhkəmləndirəcək: "Biz Avropa İttifaqı, ABŞ və Rusiya arasında yaranmış situasiyanı başa düşürük. Heç kim Rusiyanı sındıra bilməz, o, heç vaxt diz çökməyəcək, əksinə, sanksiyalar onu daha da möhkəmləndirəcək".

Deyəsən, vəziyyət gerçəkdən ciddidir. Elə qəzetimizin bundan qabaqkı sayının baş yazısı da məhz şimal təhlükəsinə, Azərbaycana Rusiyaya bağlı "5-ci kolon" təhlükəsinə həsr olunub. Yazıda "qırmızı xətt" kimi belə fikir də keçir ki, Azərbaycanda azsaylı olmalarına rəğmən, qərbyönlü "5-ci kolon"çular amansız şəkildə təqib edildiyi, həbsə atıldığı halda, qat-qat geniş şəbəkəli rusiyayönlü "5-ci kolon" təmsilçilərinə nədənsə toxunulmur *(daha dəqiqi, Kremlin qorxusundan toxunulmur)* və bu da ölkənin müstəqilliyi üçün özündə ciddi neqativlər daşımaqla yanaşı, sonuncuların əl-qolunu açır. Əlbəttə ki, rusyanlılar bir azca narahat edilsəydilər, Eyyubov kimilər Bakıda oturub Rusiyanın, Putinin ünvanına belə siyasi tostlar deməyə cürətlənməzdilər.

Əslində belə olmağı daha yaxşıdır. Yaxşıdır ki, ABŞ və Avropa Rusiyanı sıxdıqca bizdəki odioz "5-ci kolon"çular da səngərdən, daş altından sürətlə çıxırlar. Qoy cəmiyyət, milli-demokratik qüvvələr onları məhz indi daha yaxşı tanısınlar ki, fors-major vəziyyətlərdə fakt qarşısında qalmasınlar.

Azərbaycandakı Kremlə meylli "5-cilər"i tanımaq isə bir o qədər çətin deyil. Bunun üçün onları 1-2 testdən keçirmək kifayətdir. Onlar əsasən aşağıdakılardır: kim ki, Qərb-Rusiya qarşıdurmasında ikincinin tərəfindədir, kim ki, Krımın işğalında, Abxaziya və Cənubi Osetiyanın tanınmasında Moskvaya haqq qazandırır, kim ki, Ukraynanın şərqindəki separatçıları "könüllü" adlandırır, kim ki, Qarabağ məsələsinin ədalətli həllini və müstəqilliyimizin təminatını Rusiyaya bağlayır, bütövlükdə Rusiyanı Azərbaycana dost ölkə sayır - əmin olun ki, o, Rusiyaya bağlı "5-ci kolon"çudur və müstəqilliyimizə potensial təhlükə mənbəyi olan ideologiyanın daşıyıcısıdır. Bu qədər sadə.

***P.S.*** *Testlərin sayı artırıla da bilər.*

❑ **Z.SƏFƏROĞLU**

# Növbə gəncliyindir

**İstər iqtidar, istərsə də müxalifət düşərgəsində gənclik yeni qüvvə kimi özünü göstərməkdədir. Bu gün siyasətə atılan gənclik bütün nöqsan və yanlışlıqları ilə bərabər yeni siyasət müstəvisini yaradırlar.**



Siyasi proseslərə qoşulmaqda olan yeni gənclik Azərbaycandakı 80-ci illərin barışmaz və mübariz gəncliyindən kəskin fərqlənsə də, dönməzliyi ilə milli azadlıq hərəkatı illərini xatırladır. Proseslərə qoşulmaqda olan, heç bir partiyada təmsil olunmayan gənclik daha praqmatik və azad bazar münasibətlərinə üstünlük verən bir təbəqə təsiri bağışlayır. Düzdür, yeni gənclik dalğası yekcins deyil və ideoloji baxımdan hazırlıqlı da deyil. Lakin istənilən halda, yeni gənclik dalğasının biganəlik azarından qurtulmağa başlaması təqdirəlayiqdir. Dünyada gedən son proseslər zamanı tələbələrin tutduğu mövqe, Azərbaycanda baş verən proseslərə artıq dözmək limitinin sona çatması gəncliyi mübarizəyə qaldıra bildi.

Odur ki, ehtimal etmək olar ki, siyasi düşərgələr hər vəchlə gənclərin müstəqil hərəkata çevrilməsinə imkan vermək istəməyəcəklər. Bu halda gənclərin hansı addımları ata biləcəyi hələlik bəlli deyil. Bu gənc siyasətçilərin fantaziyalarının genişliyindən asılı olacaq.

Azərbaycandakı siyasi prosesləri izləyənlər əmindirlər ki, 2015-ci parlament seçkiləri zamanı ən aparıcı qüvvə gənclik və onların dəstəklədiyi qüvvələr olacaq. Bu baxımdan, Azərbaycan gəncliyinin mübarizəsinin ən qızğın mərhələsi 2015-ci il parlament seçkiləri və 2018-ci il prezident seçkilərində özünü göstərəcək. Azərbaycanın gələcək millət vəkilləri, nazirləri, partiya sədrləri və prezidenti də bu gün mübarizədə olan gəncliyin sırasından çıxacaq. Gənclik mübarizəyə başlayıb və bu yolda ona yalnız dəstək lazımdır. Səhv etmək limitini hələ xərcləməyən gəncliyin yolunu kəsməyin də heç bir perspektivi yoxdur. Gənclik uğrunda mübarizə aparmağın da bir mənası görünmür. Azərbaycan gəncliyinin öz yolu var. Bu yolun, nə qədər çətin olsa da, sonu görünür.

İqtidar və müxalifətdə olan veteranlar artıq bacardıqlarını ediblər. İndi növbə gəncliyindir. Azərbaycan siyasi mühiti gəncləşməyə məhkumdur. Bu proses ya ağrılı gedəcək, ya da daha sivil formada cərəyan edəcək. İstənilən halda yol gəncliyindir və bu qüvvəni durdurmaq artıq mümkün görünmür...

❑ **Azər RƏŞİDOĞLU**

# Böyük olmaq asan deyilmiş...



**Hüseynbala SƏLİMOV**

**Uşaqlıqda xəzəlin üstü ilə yeriməyiniz yadınızda qalıbmı? Payızın min bir naxış vurduğu yarpaqları xatırlaya bilirsinizmi? Bəli, kim nə deyir, desin, uşaqlığın öz ətri, öz qoxusu var...**

İndi adam düşür bu şəhərin canına. Elə hey o qoxuları, o ətirləri axtarırsan, həmişəyaşıl, iynəyarpaqlı ağaclar səni lap özündən çıxarır. Ona görə ki, onların duruşunda bir heyvərəlik var.

Axı hər şey dəyişir, heç nə il boyu bir rəngdə qalmır... Amma bunlar "yaşıl" paltarlarını soyunmaq haqqında heç düşünmürlər də...

Bəli, yayın hərarəti artıq çəkilir. Bir də görəcəyik ki, payız evin lap kandarındadır. Başbilənlərimiz deyəcək ki, bu il də sovuşdu. Bir də qaldı gələn bahara. Bunu deyib çəkiləcəklər öz qərargahlarına-yuvalarına...

Biz bu şəhərlə də, bu payızla da təkbətək qalacağıq. Sonra da qış gələcək. O, bütün gücünü toplayıb bir dəfə qarlayacaq. Bizim də dözümümüz olmayacaq, qışın kiçik şıltaqlığından bezəcəyik, arzu edəcəyik ki, yenə də o isti, o qızmar yay qayıtsın...

Amma bir rus mahnısının gözəl sözləri var. Bəli, deyir ki, təbiətdə pis hava olmur...

Niyə yazının əvvəlində uşaqlığı xatırladım? Məsələ bundadır ki, uşaqlıqda bütün fəsillər və havalar, təbiət bizə yalnız sevinc gətirirdi...

İndi isə... Bəli, indi isə yaxşı və pis hava var, yaxşı və pis fəsillər var... Ötən il Ukraynada insanlar bütün qışı, bəli, şaxtalı qışı meydanda keçirdilər. Üşüdüm deyən də olmadı...

Biz isə... Biz isə məcburuq ki, Ezop dilində danışaq. Bir tərəfdən bu, yazıya gözəllik gətirir və təzə ifadə formaları tapırsan... O biri tərəfdən də düşünürsən ki, ilin-günün bu vaxtında, həyatın bu sürətində Ezop dilini anlayan olacaqmı?

Bəli, dərd də bundadır. Bəlkə də qadağalar olmasaydı incə satira yaranmazdı.

Heç Sabir də olmazdı. Bunu qəbul edirik. Amma...

"Amma"sı budur ki, insanın fantaziyası nə qədər zəngin olursa-olsun, yenə də qadağalar adamı bezdirir, yorur...

Bu illər ərzində iki yazı mənə xüsusi həzz verib. Biri F.Fukiyamanın "Tarixin sonu" yazısı, o birisi də F.Zaxarianın "Azadlığın gələcəyi" adlı kitabı idi. Birincini bütünlüklə, ikincini isə hissələrlə oxumuşam...

Biri ifrat optimizmin, digəri isə xəfif pessimizmin göstəricisi hesab edilə bilər.

İndi baxıram Türkiyədə baş verən son olaya.

Bəli, R.T.Ərdoğan demokratik yolla prezident seçildi. Amma onun imzaladığı birinci qanun nə oldu? Çox da düşünməyin, özünüzü yormayın. Yeni qanunla hökumətin internetə müdaxiləsi təmin edilir...

Bu da sənə demokratiya! Əslində mən R.T.Ərdoğanı heç vaxt demokrat hesab etməmişəm. Bu adamın imkanı olsa, Türkiyədə lap teokratik rejim qurar! Amma nə yaxşı ki, Türkiyədə hələ demokratiyanı dəyərləndirən insanlar var. O insanlar R.T.Ərdoğanın psevdo-islahatlarının yolunda bir maneədir.

Yazının əvvəlində həmişəyaşıl, iynəyarpaqlı ağaclar haqqında yazdım. Dedim ki, onların duruşunda bir heyvərəlik var. Bunlar elə ağaclardır ki, nə xəzəli, nə də barı var. Heç kölgəsinə də sığına bilmirsən... Uzunömürlü hakimiyyətlər də belədir: nə kölgəsi var, nə barı, nə də xəzəli...

Birinci soyuq müharibədən sonra düşündük ki, daha bitdi, azadlıqla rəqabətdə olmaq heç kimin ağlına belə gəlməyəcək. Amma yox. Belə olmadı. İndi məlum olur ki, hələ azadlıq yolundakı birinci böyük sədd uçulub...

ABŞ konstitusiyasında çox maraqlı bir maddə var. Orada deyilir ki, Konqress azadlığı məhdudlaşdıran akt qəbul edə bilməz. Amma azadlığı daban-dabana izləyən başqa bir dəyər də var. O da təhlükəsizlikdir.

Üstəlik, azadlıq bir cür yozulursa, təhlükəsizliyin min yozumu var. Onlardan biri də elə dövlətin təhlükəsizliyidir. Amma məni heç kim inandıra bilməz ki, R.T.Ərdoğan həmin o qanunu imzalayarkən dövlətin təhlükəsizliyi nöqteyi-nəzərindən bunu edib. O, həmişə özünü düşünüb və indi də özünü düşünür...

Amma bu, bir presedent olacaq. Çox güman ki, internetin əlindən axır vaxtlar dırnaqlarını didən digər rejimlər də bu yolla gedəcəklər... Artıq bununla bağlı soraqlar da gəlir.

Ona görə də adam uşaqlığına qaçmaq istəyir. Böyük olmaq sən demə, o qədər də asan deyilmiş. Böyüklərin oyunlarını oynamaq çox çətin məsələ imiş, heyf deyil, uşaq oyunları!

Bəli, böyük insanlar daha qəliz oyunlar oynayırmış. Üstəlik, onların oyuncaqları da çox baha imiş...

YENİ MÜSAVAT

N 231 (5940) 16 sentyabr 2014



# Məktəb açıldı, yollar bağlandı...

## Namiq Həsənov: "Nəqliyyat Nazirliyi olaraq bizim üzərimizə nə düşürsə, onu da edirik"
## Fazil Mustafa: "Görünür ki, Nəqliyyat Nazirliyi vətəndaşları müharibəyə hazırlayır"

**Yeni dərs ilinin başlanması ilə əlaqədar paytaxtın müxtəlif yerlərində, əsasən də universitetlərin yerləşdiyi ərazilərdəki yollarda tıxac yaranıb. Hər il tədris ili başlayanda tıxaclar Bakıda əsas problemlərdən birinə çevrilir. Maraqlı fakt ondan ibarətdir ki, tıxaclar yalnız mərkəzdə və pik saatlarda deyil, şəhərin istənilən yerində, istənilən saatda yaranır. Bu barədə çox yazılıb, çox deyilsə də, problemin həlli yolunda çox az irəliləyiş müşahidə olunur.**

**Nəqliyyat Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri Namiq Həsənov Nəqliyyat Nazirliyinin gücləndirilmiş iş rejiminə keçdiyini dedi:** "Bizim bütün strukturlarımız, "Dəmiryolservis", Dövlət Avtomobil Nəqliyyatı Xidməti və digərləri gücləndirilmiş iş rejimində işləyir. Biz ictimai nəqliyyatda, eyni zamanda rayonlardan gəlib-gedən avtobuslarda insanların intensivliyini nəzərə alaraq daha çox diqqəti bu istiqamətə yönəltmişik. Təbii ki, tıxaclarla da bağlı həm Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzi, ilk başda monitorlarla həm televiziya, həm də radio vasitəsilə insanlara məlumat verir. İndi də əlimizdən nə gəlirsə, çalışırıq ki, onu da edək. Düzdür, bu tıxac gözlənilən idi. Amma buna baxmayaraq, biz fəaliyyətimizi gücləndirilmiş iş rejimində davam etdiririk və bir neçə gün də bu istiqamətdə çalışacağıq. Elə yerlər var ki, orada müəyyən körpülər istifadəyə verildikdən sonra tıxacların qarşısı alınıb. Amma elə yerlər də var ki, orada intensivlik həddindən artıq böyükdür. Dövlət Yol Polisi avtomobili olan hər kəsə müraciət edərək deyir ki, avtomobillərdən maksimum az istifadə etsinlər. Dar və ensiz küçələrdə, məktəblərin qarşısında avtomobillərini saxlamasınlar. Yəni Nəqliyyat Nazirliyi olaraq bizim üzərimizə nə düşürsə, onu da edirik".

Böyük Qurtuluş Partiyasının sədri, deputat Fazil Mustafa hər il bu biabırçı halın təkrarlandığını və təcili tədbir görülməsinin vacib olduğunu bildirdi: "Mən bunu yazımda bir dəfə da qeyd etmişdim. Nəqliyyatın intellektual idarə edilməsi deyilən bir anlayış var. Bunu tez-tez Azərbaycan cəmiyyətinə nümayiş etdirirlər ki, guya bizdə nəqliyyat intellektual idarə olunur. İnsanların tıxaclarda saatlarla qalması, hamının bir-birinə tolerant yanaşmasını Nəqliyyat Nazirliyi sınaqdan çıxarır. Bu isə mənə elə gəlir ki, məqsədyönlü şəkildə edilir ki, görək insanların dözümü nə qədər olacaq. Məsələn, xəstə adam 3-5 saat tıxacda necə qalacaq, uşaq istidə maşında oturub necə vaxtı gözləyəcək. Bunların hamısı əcaib və qeyri-mədəni də görünsə, reallıqdır. Görünür ki, Nəqliyyat Nazirliyi vətəndaşları müharibəyə hazırlayır. Yəni ki, vətəndaş bu şərtlərdə özünü dözümlü formalaşdırmaq üçün bir fürsət əldə edir. Çünki hamı bilirdi ki, sentyabrın 15-i gəlir və hər yanda tıxaclar başlayacaq. Bunun qarşısını almaq üçün ciddi tədbirlər görülməli idi. Bir gün öncədən xəbərdarlıq edilməli, hansı küçənin bağlı, tıxac olacağı haqda məlumat verilməli idi. İctimai nəqliyyat keyfiyyətli çalışmır. Avtobuslar böyük olduğuna görə Bakı şəhərinin içi ilə hərəkətdə tıxaclara səbəb olurlar və özləri də lazımi yerə gedib vaxtında çata bilmirlər. İllərdir nəqliyyatda guya nələrinsə yaxşılığa doğru getdiyini deyərək başımızı aldadırlar. Normal yolların çəkilişindən başqa nəqliyyatın idarə edilməsi çox bərbad vəziyyətdədir. Məncə, bu problemə təcili müdaxilə edilməlidir".

Ekspertlər hesab edirlər ki, tıxac probleminin aradan qaldırılması üçün onu doğuran əsas səbəblərin müəyyən edilməsi və şəhərsalmada yol verilmiş yanlışlıqlara qarşı tədbirlərin görülməsi vacib şərtlərdəndir.

❑ **Günel MANAFLI**

---

## QMİ sədri ilə yeni dövlət müşaviri arasında narazılıq yaranıb

# Şeyx "ehsan qadağası"na qarşı

### Kamal Abdullanın təklif etdiyi "ehsan tənzimləmələri" bütün Qafqazın Şeyxini qəzəbləndirib; Dini Komitə sədrinin mövqeyini yumşaltmasının səbəbi üzə çıxır; ölkənin baş ruhanisi yas mərasimləri ilə bağlı yeni qaydalardan niyə hələ də danışmır...

**Avqustun sonlarından başlayaraq, hökumətin ölkədə yas məclislərinin keçirilməsi qaydalarına dəyişiklik etməsi Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyx Allahşükür Paşazadənin ciddi narazılığına səbəb olub. Redaksiyamıza verilən məlumata görə, Şeyx onun sahəsinə nüfuz edilməsindən çox qəzəblənib. Bu günə qədər ölkənin baş ruhanisi kimi Şeyxin ehsan qadağası mövzusuna münasibət bildirməməsi hökumətə narazılığın ifadəsi kimi izah edilir...**



Allahşükür Paşazadə



Kamal Abdulla

Bizə çatan bilgiyə görə, ehsan qadağası, daha doğrusu, bu sahədə islahat təşəbbüsü millətlərarası, multikulturalizm və dini məsələlər üzrə dövlət müşaviri Kamal Abdullanın təşəbbüsüdür. Bu vəzifəyə təyinatından sonra dövlət rəhbərliyindən ciddi dəstək alan keçmiş rektor təhsil, elm və dini-mənəvi sahələrdə maarifçilik fəaliyyəti kimi geniş bir sahədə əsas söz sahibi kimi təqdim olunub. Məhz K.Abdulla yas məclislərinin təvazökar, israfçılıqdan kənar keçirilməsi, eləcə də bahalı qəbir daşlarının qadağan olunması təklifləri ilə çıxış edib. Onun bu təklifi müsbət qəbul olunub və tətbiq olunmağa başlayıb. Xatırladaq ki, yeni qaydalara əsasən, yas mərasimlərində ehsan süfrələrinin açılması qadağandır. Belə ki, yerli icra strukturlarına, onlar da öz növbəsində mollalara, bələdiyyə və polis orqanlarına tapşırıq verilib ki, yas mərasimlərində yalnız çay, xurma və halva verilə bilər.

Qadağaya əməl etməyənlər cəzalandırılır. Bəzi rayon və şəhərlərdə icra hakimiyyətlərinin başçıları qadağanı pozanlara cərimələr müəyyən edib. Bundan başqa, qadağaya məhəl qoymayıb ehsan süfrəsi təşkil edənlərin hətta yeməkləri belə müsadirə olunur.

Hökumətin bu qadağası cəmiyyətdə müsbət qarşılanıb. Əksər insanlar bahalı ehsan süfrəsi adətinin ləğv olunmasını dəstəkləyir, nəhayət ki, israfçılığa, yas sahiblərinin əlavə xərc və əziyyətə düşməsinə son qoyulmasını müsbət qarşılayır.

Maraqlıdır ki, ölkənin yarımrəsmi dini qurumu olan Qafqaz Müsəlmanları İdarəsi də əvvəlcə bu qərarı alqışladı. İdarədən bildirdilər ki, bu barədə QMİ-nin hələ 3 il əvvəl cəmiyyətə müraciəti və yas mərasimlərinin təvazökar, israfçılıq olmadan keçirilməsi ilə bağlı tövsiyələri var. Ancaq eyni zamanda QMİ bu qadağanın məcburi deyil, könüllü olmasının, insanların bunu öz istəklərinə görə etməsinin daha münasib olduğunu bildirdi. Qurumun təmsilçiləri dəfələrlə qeyd ediblər ki, bu məsələdə məcburetmənin əleyhinədirlər.

**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi də bu məsələdə məcburi qadağanın tərəfdarı kimi çıxış etdi. Belə ki, qadağa barədə mətbuatda məlumatlar getdikdən sonra komitə sədri Mübariz Qurbanlı bildirdi ki, Azərbaycanda yas mərasimləri həddini aşmamalı, israfçılığa yol verilməməlidir:** "Yas mərasimləri ilə bağlı Azərbaycanın milli adət-ənənələri var. Milli adət-ənənələrimiz zaman-zaman mövcud olub, lakin onlar ehkam deyil, adət-ənənələr də zamana uyğun olaraq dəyişikliyə məruz qalır və bu da təbii prosesdir. Bunlar dinimizin tələblərinə uyğun edilməlidir".

**Bu qadağalar getdikcə cəmiyyətdə də müsbət qarşılandıqda isə QMİ növbəti dəfə açıqlama yayaraq məcburi ehsan qadağasına qarşı çıxdığını bəyan etdi. Bundan sonra Dini Komitənin sədri M.Qurbanlı da növbəti açıqlamasında bir qədər yumşaq mövqe sərgiləyərək yas mərasimləri ilə bağlı qadağa deyil, ancaq tövsiyə ola biləcəyini dedi. Sitat:** "Biz komitə olaraq bu yolla yas mərasimlərinin vətəndaşlarımız tərəfindən normal keçirilməsinə nail olacağıq. Bu, yalnız izahat və yerlərdə din xadimlərimizlə birgə fəaliyyət nəticəsində həll olunacaq. Ona görə də bununla bağlı deyildiyi kimi, hansısa qanunun qəbul olunmasına biz ehtiyac görmürük".

Qaynağımızın məlumatına görə, məhz ehsan qadağası QMİ ilə, daha dəqiqi şeyxlə hökumət qurumlarının arasını "vurub". Dövlət orqanlarının birbaşa onun cavabdeh olduğu, daha doğrusu, nəzarəti altında olan sahəyə müdaxilə edərək onun başı üzərindən qərar verməsi şeyxi qəzəbləndirib. Bu səbəbdən də şeyxülislam nəinki bu qərarı açıq şəkildə dəstəkləməyib, əksinə, QMİ-nin binasında yerləşən ehsan zallarında yeməkli ehsan məclislərini davam etdirməklə, açıq şəkildə narazılığını ortaya qoyub. Onun dövlətdə siyasi qərarlar verən iki nəfərə şəxsən telefon açdığı, onun iradəsi olmadan bu cür addımın atılmasından şikayətləndiyi və digər müvafiq qurumlara da öz etirazını bildirdiyi də gələn xəbərlər sırasındadır.

Bizi bu mövzuda bilgiləndirən mənbənin iddiasına görə, şeyx məhz ehsan qadağası ilə bağlı DQİDK sədri Mübariz Qurbanlı ilə də danışıb və komitə sədrinə sərt şəkildə etirazını bildirib. Mənbənin onu da bildirib ki, şeyx M.Qurbanlıya bu kimi mövzularda onun da rəyinin alınmasının gərəkli olduğunu xatırladıb və açıq şəkildə bu qadağanın işləməsinə razı olmayacağını bildirib.

Dini Komitə sədrinin öz mövqeyini sonradan yumşaltması onun şeyxlə üz-üzə gəlməkdən yayınması kimi yozulur. Uzun illər hakimiyyət daxilində siyasi təcrübə toplamış M.Qurbanlı bu sahədə şeyxlə toqquşmanın ondan əvvəlki komitə rəhbərlərinə baha başa gəldiyini bildiyi üçün mövqeyində korrektə etməyə məcbur olub. Daha dəqiqi, şeyxlə toqquşmaya getmək istəməyib. Bu səbəbdən M.Qurbanlı sonrakı günlərdə mövqeyində müəyyən qədər yumşalma edərək ehsan məclislərinin məcburi deyil, könüllü olaraq tənzimlənməsinə tərəfdar olduğunu deyib.

Yeri gəlmişkən, bu hadisədən sonra şeyxin Kamal Abdulla ilə münasibətlərində də soyuduq yaranıb. K.Abdullanın son günlər tədbirlərdə az-az görünməsi, dini tədbirlərə isə ara-sıra qatılması da deyilənləri təsdiqləyir. Yeri gəlmişkən, qeyd edək ki, şeyxülislam bir qayda olaraq onun sahəsinə müdaxilə edən dövlət məmurlarını bağışlamır. Son illərin təcrübəsi onu da göstərir ki, şeyxlə toqquşma bir qayda olaraq qarşı tərəf üçün baha başa gəlir.

**Bəs bu dəfə? Mövzuya qayıdacağlıq...**

❑ **Hüseyn DƏMİRÇİ**

# Bakıdakı Rusiya forumu Qərbə qarşı çevrildi

## Baş nazirin müavini Yaqub Eyyubov: "Heç kim Rusiyanı sındıra bilməz, o, heç vaxt diz çökməyəcək, əksinə..."

**Sentyabrın 15-də Bakıda Azərbaycan-Rusiya iqtisadi əməkdaşlıq məsələləri ilə bağlı Hökumətlərarası Komissiyasının XXIV iclası keçirilib.**
**Rusiyanın "İnterfaks" informasiya agentliyinin xəbərinə görə, iclas Azərbaycanın baş nazirinin birinci müavini Yaqub Eyyubov və onun rusiyalı həmkarı Dmitri Roqozinin rəhbərliyi ilə baş tutub.**



"AzərTAc" xəbər verir ki, baş nazirin birinci müavini Yaqub Eyyubov uzun fasilədən sonra hökumətlərarası komissiyanın iclasının keçirilməsini müsbət dəyərləndirib: "Əminəm ki, Rusiyanın geniş tərkibdə Azərbaycana gələn nümayəndə heyəti ilə danışıqlar ikitərəfli əməkdaşlığa böyük təkan verəcək. Rusiya daim Azərbaycan üçün ən yaxın dost və qonşu ölkədir. Biz daim bir yerdə yaşamış və əməkdaşlıq etmişik. Dünyanın bu mürəkkəb vaxtlarında da daim bir yerdə olmalıyıq. Biz birlikdə həmişə güclü olacağıq".

**Rusiya baş nazirinin müavini Dmitri Roqozin deyib ki, Rusiya iqtisadiyyatının çətin dövrlər yaşadığı bir vaxtda iki ölkə daha da yaxınlaşır:** "Hazırda Azərbaycan iqtisadiyyatı sürətlə inkişaf edir və onun məhsulları Rusiya bazarlarına çıxarılır. Artıq müştərək müəssisələrin yaradılması vaxtı çatıb. Bu müəssisələr həm kənd təsərrüfatı, həm də sənaye sahələrini əhatə edə bilər. Enerji məsələləri üzrə yüksək işçi qrupunun yaradılması da gündəmdədir.

2013-cü ildə ölkələrimiz arasında əmtəə dövriyyəsi 3,6 milyard dollar təşkil edib. Bu ilin yanvar-iyul aylarında isə həmin göstərici 2,2 milyard dollar olub. Rusiya hazırda Azərbaycanın istehsal etdiyi məhsullara ehtiyac duyur və bunun üçün ölkənizin əlavə resursları var".

Y.Eyyubov çıxışında Qərbin Rusiyaya sanksiyaları məsələsinə də toxunub. O deyib ki, "Rusiya elə ölkə deyil ki, onunla sanksiya dilində danışmaq mümkün olsun".

Y.Eyyubov Qərbin Rusiyaya qarşı sanksiyalarının mənasız olduğunu deyib.

Rusiyanın NTV telekanalının İTAR-TASS-a istinadən verdiyi xəbərə görə, Azərbaycan baş nazirinin müavini əmin olduğunu bildirib ki, yeni sanksiyalar Rusiyanı sındıra bilməyəcək, əksinə, onu möhkəmləndirəcək. "Biz Avropa İttifaqı, ABŞ və Rusiya arasında yaranmış situasiyanı başa düşürük. Heç kim Rusiyanı sındıra bilməz, o, heç vaxt diz çökməyəcək, əksinə, sanksiyalar onu daha da möhkəmləndirəcək" deyə, Y. Eyyubov bildirib.

Hökumətlərarası komissiyanın növbəti iclası 2015-ci ildə Yekaterinburqda keçiriləcək 6-cı Rusiya-Azərbaycan regionlararası forumu çərçivəsində baş tutacaq. Bu gün Bakıda keçirilən iclasın protokolunda belə qeyd olunub. Sənəddə həmçinin Azərbaycan və Rusiya hökumətləri və müvafiq nazirliklər arasında gömrük, dəniz nəqliyyatı, Xəzər dənizində axtarış və xilasetmə, turizm, gənclər siyasəti, əmək miqrasiyası və digər sahələrdə əməkdaşlıqla bağlı müqavilələrin razılaşdırılması və hazırlanması üzrə iş aparılmasının vacibliyi qeyd olunub.

Qeyd edək ki, Rusiya baş naziri Dmitri Medvedyev deyib ki, Qərb bütün növ təhdidlər, sanksiyalar vasitəsilə Rusiyanın gücünü yoxlayır. "Problemlərin həlli ilə bağlı onların şirnikləndirici təkliflərinə uymamaq lazımdır. Ölkədə demokratiyanın inkişafına xidmət edən addımlar atmaqla, ölkəmizi müdafiə etməliyik" deyə, o vurğulayıb.



Yaqub Eyyubov

❑ *Xəbər xidməti*

## ABŞ kəşfiyyatı: "İŞİD neftin bir barrelini Türkiyəyə 25 dollardan satır"

**"İslam Dövləti" qruplaşması (əvvəlki adı "İraq və Şam İslam Dövləti" və ya İŞİD) İraq və Suriyada ələ keçirdiyi ərazilərdən hasil etdiyi neftdən hər gün 3 milyon dollar qazanır.**

Virtualaz.org saytı xəbər verir ki, "Assosieyted press" bu haqda Amerika kəşfiyyatının hesabatına istinadən məlumat yayıb.

Hesabatda bildirilir ki, qanunsuz neft gəlirləri sayəsində İŞİD tarixin ən varlı terror təşkilatına çevrilib.

Hazırda "İslam Dövləti" qruplaşması Suriya və İraq ərazisində 11 neft yatağına nəzarət edir. Bu yataqlardan hasil olunan neft avtosisternlərlə İordaniya, Türkiyə və İraqın qara bazarlarında satılır.

Xəbərdə bildirilir ki, "İslam Dövləti"nin satdığı neftin qiyməti bir barrel üçün 25 dollardan 60 dollara qədər dəyişir. Hansı ki, dünya bazarlarında neftin bir barrelinin qiyməti 100 dollara yaxındır.

Amerika kəşfiyyatının qiymətləndirmələrinə görə, Birləşmiş Ştatlar aviasiyası asanlıqla "İslam Dövləti"nə milyonlarla dollar gəlir gətirən neft yataqlarını məhv edə bilər. Lakin Vaşinqton hələlik mülki insanların zərər çəkəcəyindən ehtiyat edərək hava zərbələri endirmir.

Amerika kəşfiyyatı bildirir ki, "İslam Dövləti" həmçinin soyğunçuluqdan, oğurladıqları insanların əvəzinə aldığı puldan və qul alverindən də milyonlar qazanır.

# İŞİD-in narıncı rəngli kəfəninin şok sirri...

## Terrorçular qərblilərin başını kəsərkən onlara məhz bu rəngdə edam libası geyindirməklə Obamaya mesaj verirlər



**İraq və Suriyanı viran qoyan "İslam Dövləti" terror təşkilatı bütün dünyanın diqqət mərkəzindədir. İŞİD silahlıları yaşlı, cavan, körpə - heç kəsə fərq qoymadan onları qətlə yetirir, baş kəsirlər. Üstəlik, elədikləri bu cinayətləri Allah yolunda cihad sayaraq başkəsmə görüntülərini videoya çəkib sosial şəbəkələrdə yayırlar.**

Lakin bu edam səhnələrində diqqət çəkən bir məqam da var. İŞİD bu günə kimi başını kəsdiyi *(o da dəqiq deyil, montaj ola bilər - E.S.)* iki amerikalı jurnalist və bir ingilisə məhz narıncı rəngdə libas geyindirir. Maraqlıdır ki, nə üçün sırf narıncı rəngində paltarda onlar edam olunur?

Bunun bir simvolik mənası və yaxud dini cəhətdən izahı varmı? İŞİD bu rəngli libasda qərbliləri edam etməklə hansı mesajı vermək istəyir? Bu suallara aydınlıq gətirmək üçün facebook sosial şəbəkəsində də kiçik sorğu keçirdik.

Facebook istifadəçilərinin qısa zamanda irəli sürdüyü ümumi mülahizədən belə məlum oldu ki, İŞİD bununla Ağ Ev sahibinə ismarış göndərir. Belə ki, Amerika dövləti ömürlük məhbusların olduğu Quantanamo həbsxanasında dustaqları yalnız narıncı rəngli geyimdə saxlayır.

Başqa bir iddiaya görə, massonlarda narıncı rəng xoş xəbər müjdəçisi, parlaq gələcəyin mənasını verir.

Ancaq daha inandırıcı və məntiqli mülahizə Quantanamo ilə bağlıdır. Çünki Qərbi və Amerikanı hədələyən terror qruplaşması əslində İŞİD lideri Əbubəkr əl - Bağdadinin qisasını aldığını nümayiş etdirmək istəyir.

Təsadüfi deyil ki, əl-Bağdadi Quantanamo həbsxanasında saxlanıb və ABŞ tərəfindən "verborvka" edilərək ortaya atıldığı iddia edilir. Buna sübut kimi ABŞ senatoru Con Makkeynlə əl-Bağdadinin birgə yayılmış fotosu da var.

Siyasi şərhçilər də hesab edirlər ki, İŞİD və onun lideri əl-Bağdadi özündən əvvəlki marginal təşkilat olan "əl-Qaidə" ilə rəhbəri bin Laden kimi Amerika tərəfindən təsis edilən növbəti terror qrupudur.

Qeyd edək ki, İŞİD Suriyada uzun müddət Əsəd rejiminə qarşı apardığı mübarizənin effektsizliyini görüb İraqa soxuldu. Hazırda terrorçular ölkənin Mosul şəhərini və yaxın kəndləri işğalda saxlayır. Onların hər gün bir başkəsmə, uşaq öldürmə, kütləvi edam səhnələri sosial şəbəkələrdə yayımlanır.

❑ **Emil SALAMOĞLU**

# Daxildən gələn səs



**Mahal İSMAYILOĞLU**
mahal57@mail.ru

**İndi heyrət doğuran ziddiyyətlərdə boğulan Rusiyada ziyalıların susmağı, şovinist təbliğat arxasınca sürünməyi saysız-hesabsız suallar yaradır. Artıq son yarım ildə atılan addımların yanlış olduğunu dərk etməmək üçün elə bir fəhmə də ehtiyac yoxdur. Bütün dünyada Rusiyaya qarşı yönələn nifrətin belə həddə qərarlaşmasında bu avtoritar rejimin təbliğat şəbəkəsi az rol oynamadı. Siyasi səhnədə bu ölkə daim təkid edirdi ki, Ukraynadakı qanlı savaşda iştirakçı deyil. Bu ölkənin KİV-ləri isə başqa ab-hava yaradırdılar. Hər gün xəbərlər proqramının böyük hissəsi Ukraynaya qarşı yönəlirdi və vaxt limitini də aşırdı. Nifrətin, qəzəbin bu həddə qərarlaşmasını anlamaq da çətin idi.**

Diqqət yetirin, son bir həftədə təbliğatı xarakteri dəyişib, anti-Ukrayna isteriyası səngiyib. Kimə sirdir ki, avtoritar idarəçiliyin hökm sürdüyü ölkədə mətbuat barmaq işarəsi ilə idarə olunur. Hətta yanlışa qarşı da heç kim səsini ucalda bilmir...

Tarix boyu müstəsna xalq düşüncəsinə köklənən, millətçilik girovuna düşən toplumların aqibəti eyni cür olub: qısa bir vaxtdan sonra kütlə dövlətin yanlış idarə edildiyini anlayıb, faciələrin törəmə səbəblərini dərk edib və cilovlanmayan qəzəb içəriyə yönəlib...

Heç şəkkiniz olmasın ki, Rusiya qlobal fəlakət astanasındadır. Bu ölkədə yaşayanlar, sovet imperiyasından fərqli olaraq, dünyadakı dəyərlərdən bəhrələnmişdi. Sivilizasiyanın yaratdığı üstünlükləri görmüşdü. Onu bütün bunlardan tədric edən ideologiya artıq yox idi. Dəmir çəpər aradan götürülmüşdü. 20-23 ildən sonra insanları əvvəlki həyata qaytarmaq mümkün də deyil. Qısa bir zaman kəsimində kütləni buna kökləmək olar. Amma o qədər də daxili müqavimətin yaranacağına bir zərrə şübhə yoxdur.

Ən üzdə olan şərtlərdən imtina etmək mümkünsüzdür. İndiyəcən pendirin, makaronun bir-iki çeşidini dadan insanlar, indi Qərbdən gələn müxtəliflik çalarlarına düşmüşdü. Putin rusları qəfildən bundan imtina etməyə məcbur etdi. Hələ mağazalarda köhnə ehtiyatlar tükənməyib, hələ daxili istehsalın, istehlakın necə yarıtmaz olduğu tam dərk edilməyib. Psixoloji dönüş nöqtəsi isə o dərk məqamından başlayır.

Tək-tək də olsa, Rusiyada nüfuzlu ziyalılar - keçmiş baş nazir Primakov, keçmiş maliyyə naziri Kudrin, tanınmış müğənni Makareviç bu yolun yanlış olduğunu, Rusiyaya fəlakət vəd etdiyini dilə gətirirlər. Bu, etirazların ilk dalğasıdır. Ziyalıların böyük bir dəstəsi - müğənnilər, aktyorlar, yazıçılar, alimlər bu yolun səhv olduğunu diqqətə çatdırmaq üçün müraciətə imza da atıblar... Hətta sanksiyaların üçüncü dalğasından sonra Rusiya prezidentini ritorikası da ciddi şəkildə dəyişdi. Tacikistanın paytaxtı Düşənmə şəhərindəki mətbuat konfransında onun çıxışı diqqətdən yayınmadı. Həmişə aydın biçimli cavablar verən prezident bu dəfə tez-tez, qırıq-qırıq cümlələrlə sualları cavablandırırdı. Dərhal hiss olunurdu ki, budəfəki qadağalardan ciddi sarsıntı keçirir. Milyonlarla insan bunun şahidi oldu və belə çaşqınlıq, bir qayda olaraq, izsiz ötüşmür...

Danılmaz bir gerçəkdir, bu cür özünü iflasa köklənmiş dövlətlərin çökməyi onunla qonşuluqda olan ölkələrdə ağrılı-acılı iz qoyub. İndi Rusiya təbliğatı inandırmağa çalışır Qərbin sanksiyalarına qarşı ərzaq idxalına qadağa qoyulması bu ölkələrin iqtisadiyyatına ağır zərbə vurub. Mifik təsəllidir. Bunun fəsadlarını biz də öz taleyimizdə görürük. Qərbin üzünə Rusiya bazarları bağlanıb, bizim üzümüzə isə "açılıb". Əvəzində biz də indiyəcən ucuz aldığımız malları ikiqat-üçqat para ödəyirik. Bu hal daha beş-altı ay davam etsə, hansı böhranla üz-üzə qalacağıq? Azərbaycandakı rejim bunun qarşısını almaq üçün hansı resurslara malikdir? Rusiyanın nazı ilə oynamaq üçün əlavə xərclərəmi gedəcəyik? Bu addımlar daxili müqavimətlə üzləşsə, hakimiyyət hansı addımlar atacaq?

Dövlətçilik immuniteti zəif olan toplum üstümüzə sıçrayan çirkabdan qoruna biləcəkmi? Ən nəhayət, Dağlıq Qarabağ münaqişəsi ağır yük kimi ayağında buxov olan bir ölkə şimal qonşusu isterik anlar yaşayanda hansı zərbələr alacaq...

Bizə yönələn təhlükələr ciddi addımlar atılması zərurəti yaradır. Amma qəribədir ki, hakimiyyət dairələrində bir zahiri arxayınçılıq hökm sürür, ya da "bəlkə belə bizdən yan keçdi" təsəllisi düşüncələrə hakim kəsilib. Dar ayaqda qlobal müqavimət yaradacaq cəmiyyət yoxdur. O həbs olunmaq, tapdanmaq təhlükəsi qarşısında geri çəkilib... Xalqsız hakimiyyət formalaşıb...

YENİ MÜSAVAT
N 231 (5940) 16 sentyabr 2014

# Jirinovski Azərbaycana gəlir


Vladimir Jirinovski

**Rusiya Liberal-Demokrat Partiyasının (RLDP) lideri Vladimir Jirinovski Azərbaycana səfərə hazırlaşır.**

Bu barədə bazar ertəsi "Trend"ə diplomatik mənbə məlumat verib.

Onun sözlərinə görə, Jirinovski paytaxtda və ölkənin regionlarında bir sıra görüşlər keçirməyi, respublikadakı inkişaf prosesləri ilə yaxından tanış olmağı planlaşdırır.

Səfərin sentyabrın sonunda baş tutacağı gözlənilir.

# Rövnəq Abdullayev neftin qiymətinin düşməsindən narahat deyil


Rövnəq Abdullayev

**Neftin dünya qiymətlərinin qısamüddətli azalmasının ARDNŞ-in (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) gəlirlərinin illik göstəricilərinə təsiri barədə danışmaq olmaz.**

"Trend" xəbər verir ki, bunu jurnalistlərə ARDNŞ prezidenti Rövnəq Abdullayev neftin qiymətlərinin azalması və bu prosesin şirkətin gəlirlərinə təsiri məsələsini şərh edərkən deyib.

R.Abdullayev qeyd edib ki, vəziyyət normaldır və bu proseslər həmişə proqnozlarda nəzərə alınır.

Qeyd edək ki, ötən həftə Yaxın Şərqdə münaqişənin gərginləşəcəyi ilə bağlı gözləntilər fonunda London birjasında Brent markalı neftin bir barrelinin qiyməti 97 dollaradək aşağı düşüb.

Dünya bazarında artıq ardıcıl olaraq 3 aydır ki, neftin qiyməti azalır. Ekspertlərin fikrincə, bir-iki aydan sonra dünya bazarında neftin bir barrelinin qiyməti 85 dollaradək enə bilər.

Onu da qeyd edək ki, 2013-cü ilin yekunları üzrə ARDNŞ-in neft satışından gəlirləri 25,32 milyard manat təşkil edib. 2012-ci ilin yekunları üzrə isə bu göstərici 10,13 milyard manata yaxın olub.

# Eldəniz Quliyev

# EL Hərəkatından narazılıq elədi

## Onun rəhbərlik etdiyi Ziyalılar Birliyi ofisindən çıxarılıb



**Eldəniz Quliyevin sədri olduğu Ziyalılar Birliyi iki ildir yerləşdiyi ofisdən çıxarılıb. Bu barədə Eldəniz Quliyev məlumat verib. Onun sözlərinə görə, əsas məqsədi mədəni irsin təbliği olan qurumun yerləşdiyi mənzilin sahibi ilə icarə müqavilələri və digər bütün sənədlər qaydasında olub.**

**Lakin mənzilin sahibi mədəni formada ofisdən çıxmalarını istəyib:** "Sentyabrın 10-da Nəsimi Rayon Məhkəməsi xüsusi ittiham qaydasında mənim ölkəni tərk etməməyim haqda qərar çıxarandan sonra ev sahibi tez bir zamanda ofisi tərk etməyimizi xahiş etdi. Biz məcburiyyət qarşısında sentyabrın 13-də oradan çıxmalı olduq".

Qeyd edək ki, Eldəniz Quliyev həm də Ziyalılar Forumunun və Milli Şuranın üzvüdür, EL Hərəkatının Ali Məclis sədridir.

Maraqlıdır ki, bu hadisə Daxili İşlər Nazirliyi Eldəniz Quliyevin həbsi tələbi ilə məhkəməyə müraciət etdikdən bir müddət sonra baş verib. E.Quliyev hesab edir ki, ona qarşı başlanan məhkəmə iddiası, ofisindən çıxarılması, ölkədən xaricə getməsinə məhkəmə qərarı ilə qadağa qoyulması onun siyasi fəaliyyətinə, eləcə də Milli Şuranın sessiyalarına ev sahibliyi etməsinə görədir.

**Eldəniz Quliyev DİN tərəfindən məhkəməyə verildikdən sonrakı müddətdə müxalifət düşərgəsinin onu müdafiə etməsindən razı qalıb. O hesab edir ki, düşərgədən onun müdafiəsi istiqamətində ciddi müqavimət göstərilib:** "Tanınmış müxalifət təşkilatları, ictimai-siyasi xadimlər birmənalı mövqelərini ortaya qoydular. İlk olaraq Rüstəm İbrahimbəyov mənim müdafiəm üçün dalbadal iki bəyanat verdi. Sonra Müsavat başqanı İsa Qəmbər çox ciddi və arqumentləşdirilmiş şəkildə bu işin perspektivsiz və qanunazidd olduğu haqqında bəyanat verdi. Liberal Partiyanın lideri Lalə Şövkət, Milli Şuranın sədri Cəmil Həsənli, AXCP sədri Əli Kərimli mənim məhkəməyə verilməyimin qanunazidd olduğunu bəyan etdilər. Ən aktiv müdafiə edən Əli Kərimli oldu. Mən onların hamısına, ictimai-siyasi təşkilatlara minnətdarlığımı bildirirəm. Avropada mühacirətdə yaşayan soydaşlarımız da müdafiəmə qoşuldular ki, onlara da təşəkkür edirəm. Hər kəsə təşəkkür etməyimlə bərabər inanın ki, mən heç də istəmirdim ki, məsələ bu həddə çatsın. Ortada mənə qarşı qeyri-qanuni, əsassız xüsusi ittiham qaydasında iddia ərizəsi var. Mən təkbaşına da bununla mübarizə apara bilərəm. Çünki iddia elədikləri kimi, mən hörmətli daxili işlər nazirinin və bütün polislərin şərəf və ləyaqətini bir kəlmə ilə də olsa aşağılamamışam. Heç o fikirdə olmamışam. Mən dəfələrlə öz müsahibələrimdə demişəm ki, Azərbaycan polisi həqiqətən hörmətə layiqdir, polis öz sıralarından yüzlərlə şəhid verib. Çoxlu polislərimiz var ki, qanunun aliliyini qoruyur və ona hörmət edirlər. Amma mən yenə də deyirəm və deyəcəyəm ki, polislərin arasında polis adına ləkə gətirən əməkdaşlar da var. Bunu hörmətli Ramil Usubov da danmır. Dansaydı, hər il onlarla polisi işdən azad eləməzdi, töhmət verməzdi, rütbəsini əlindən almazdı. Artıq müstəqil ekspertlər də bildirirlər ki, mənim sosial şəbəkədəki yazdığım fikirlərdə bütün polisin və onun rəhbərliyinin şərəf və ləyaqətini aşağılayan heç nə yoxdur".

**E.Quliyev Ali Məclisinin sədri olduğu EL Hərəkatının və qurumun sədri Eldar Namazovun onu hansı səviyyədə müdafiə etməsi barədə suala cavabında isə narazılığını büruzə verdi:** "Eldar Namazov bəyanat verdi. EL Hərəkatının üzvləri mənim müdafiəmdə dayanıblar. Ancaq EL Hərəkatının özünün Ali Məclisinin sədrinin müdafiəsi yönündə fəaliyyətini qənaətbəxş hesab etmirəm. Təəssüf ki, belədir. Eldar Namazov məhkəmə prosesində iştirak eləmədi. Ona görə ki, Azərbaycanda yox idi".

❑ **Etibar SEYİDAĞA**

# Din xadimləri üçün vahid forma qərarı etirazla qarşılandı

**Rəhimə Dadaşova:** "Bu, mərhum xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin geyimləri əsasında hazırlanıb"

**Fazil Mustafa:** "Önəmli olan geyim yox, təfəkkür və əxlaqdır, cəhalət yaymamaqdır"

**Azər Rəşidoğlu:** "Kimisə zorla eyni geyimi geyinməyə məcbur etmək yanlışdır"

**Sentyabrın 11-də Qafqaz Müsəlmanları İdarəsi (QMİ) din xadimləri üçün vahid geyim forması müəyyənləşdirib. Daha çox köhnə aşıqların geyimini xatırladan bu geyim forması sosial şəbəkələrdə ciddi müzakirə mövzusuna çevrilib. Bu qərarın tərəfdarları ilə yanaşı, əleyhdarları da var. Bəs QMİ vahid geyim forması zərurətini nədə görür? Niyə məhz qədim aşıq geyimlərini xatırladır bu forma? Din xadimləri bu geyimləri haradan və necə əldə edəcəklər?**

Qurumun mətbuat xidmətinin rəhbəri **Rəhimə Dadaşova** "Yeni Müsavat"a açıqlamasında bu məsələnin birdən-birə ortaya çıxmadığını, müxtəlif illərdə dəfələrlə müzakirə edildiyini, ayrı-ayrı ölkələrin modellərinin nəzərdən keçirildiyini dedi: "Bu müzakirələrdən sonra QMİ rəhbərliyi qərar verdi ki, geyimlər milli çalarları əks etdirməli, milli baxımdan uyğun olmalı, Azərbaycan xalqının keçmişinə əsaslanmalıdır. Din xadimləri üçün nəzərdə tutulan vahid geyimlər QMİ-nin təyinatı ilə məscidlərdə işləyən axund və imamlar üçün nəzərdə tutulub. Həmin din xadimləri QMİ-nin təşkil etdiyi din xadimlərinin təkmilləşdirmə kurslarına cəlb olunublar və bu kursları bitirəndə onlara vahid geyimlər təqdim edilir. İndiyədək iki kurs keçirilib və ümumilikdə hər qrupda 50 nəfər olmaqla 100 nəfər iştirak edib. Sentyabrın 11-də həmin 100 nəfər axund və imama vahid dini geyimlər təqdim olunub. Artıq üçüncü qrupun dərsləri başlayıb".

**QMİ sözçüsünün dediyinə görə, geyimlər QMİ-də xüsusi dərzilər tərəfindən tikilir:** "Geyimlərin başqa yerlərdə istehsalı və satışı nəzərdə tutulmayıb və pulsuz paylanır".

**Din xadimlərinin geyiminin məhz bu formada olmasını isə Rəhimə Dadaşova belə izah edir:** "Vahid geyim forması müəyyənləşdirilərkən mərhum xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin geyimləri nümunə kimi götürüldü. Hacı Zeynalabdin Tağıyev müqəddəs Həcc ziyarətində olub, dindar insan olub və xalqımızın milli adət-ənənələrinə uyğun geyinib. Bu səbəbdən məhz onun fotolarında əks olunan geyimə və papağa uyğun olaraq din xadimləri üçün vahid geyim, həmçinin papaq hazırlandı. Əbanın çox uzun olmamasına çalışdıq. Çünki əba uzun olanda onunla ictimai yerdə rahat hərəkət etmək olmur. Vahid geyimlər din xadimlərinin daha məsuliyyətli olması, insanların zövqünü oxşaması baxımından da onların fəaliyyətinə müsbət təsir edəcək. Ona görə də din xadimləri ictimaiyyət arasına çıxanda o formada olmalıdırlar".

**Məsələyə münasibət bildirən deputat Fazil Mustafa qeyd etdi ki, önəmli olan geyim yox, təfəkkür və əxlaqdır, İslam qaydalarına uyğun davranışdır, cəhalət yaymamaqdır:** "Mollaya nə geyim forması? Azərbaycanda hər hansı ruhani təbəqə yoxdur ki, onların vahid geyim forması da olsun. Önəmli olan əməldir. Bu geyim forması heç aşıqlar üçün də doğru deyil. Deyirlər, aşıqlıq xalq sənətidir. Ancaq aşıqlar o zaman Stalinin formasını əsas götürüb o cür geyiniblər. Onların işi İslamı daha düzgün təbliğ etməkdir".



**"Yeni Müsavat" qəzetinin yazarı Azər Rəşidoğlu da din xadimlərinin vahid geyim forması ilə bağlı qərarı mənfi qarşıladı:** "Artıq biz totalitar rejimdən qurtulmuşuq. İndi kimisə zorla eyni geyimi geyinməyə məcbur etmək yanlışdır. Çox yaxşı olardı ki, mollaların savadının və mənəviyyatının yüksəldilməsi barədə düşünülsün. Əks təqdirdə, geyim dəyişikliyinin heç bir mənası olmayacaq. Bu yerdə böyük Allah dostu Bəyazid Bistaminin tələbələrinə verdiyi bir cavabı xatırlatmaq istərdim. Bir gün tələbələri Bəyazid Bistamidən xahiş edir ki, öz əbasını onlara versin və onu kəsib özlərinə təbərrük kimi götürsünlər. Bistami tələbələrinə cavab verir ki, nə qədər ki, siz mənim elmimi və mənəviyyatımı mənimsəməmisiniz, əbamı deyil, hətta dərimi belə geyinsəniz sizdən adam olmayacaq. Nə qədər ki, Azərbaycanda yas mərasimlərini aparan mollalar əxlaqları və intellektual səviyyələri ilə fərqlənmirlər, o hərbi formaya oxşayan geyimi yox, ən yüksək dəbli geyim də geyinsələr, onların hörməti artmayacaq".

Din xadimləri üçün müəyyən olunan vahid formanı sovet dövrü aşıqlarının geyiminə bənzədənlərə cavab verən **Aşıqlar Birliyinin sədri Zəlimxan Yaqub** bildirdi ki, bu iki geyim forması arasında heç bir əlaqə yoxdur və bu məsələləri eyni kontekstdə müzakirə etmək düzgün deyil.

**Aşıq geyiminin mahiyyətindən danışan Aşıq Altay isə qeyd etdi ki, geyim forması sovet hökuməti dövründən, ötən əsrin 30-cu illərindən başlayaraq dəb halını alıb:** "Ancaq bunun Stalin tərəfindən əmr olunmasını deyənlər yanılırlar. Tarix boyu aşıqlar ən mötəbər məclislərdə iştirak ediblər. Bu səbəbdən də cəmiyyətin ən varlı təbəqəsinin geyimini geyiniblər. Sovet dövründə əksər dövlət idarələrinin rəhbərləri, ictimai şəxslər, yüksək çinli hərbiçilər bu formada geyinirdilər. Aşıqlar da bu səbəbdən həmin formaya üstünlük veriblər".

❑ **Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT
N 231 (5940) 16 sentyabr 2014

**Söz vaxtına çəkər. Ötən ilin bu vaxtları idi. Bakı Ağır Cinayətlər Məhkəməsinin qabağında toplaşan jurnalist ordusunu görən ağbirçək bir qadın gəlinini öldürdüyü üçün həbs olunan oğlu üçün az qala yalvarırdı qələm əhlinə: "Neyləyəydi bu adam? Namus üstündə öldürdü də. Papağımızı yerə soxmuşdu, qəsəbəyə çıxa bilmirdik o ləçərin əlindən. Uşaqlarını camaat barmaqla göstərirdi. Balam da bunların hamısını bir dəfə eşitdi, iki dəfə eşitdi... üçüncü dəfə bıçağı götürdü. İndi prokuror 15 il iş istəyib. Bəs bu yazığın balaları?"**

# Azərbaycanda yeni cinayət dalğası: "Namus üstə ..."

## Ölkəmizdə bu cür hadisələr niyə artır?



Elə ilk andaca ətrafdakı reaksiyalara diqqət etdim. Cəmiyyət üçün bu cür cinayətlər də, onun səbəbləri də adiləşib. "Qadın xəyanət edib? O zaman öldürülməlidir də. Yazıq kişi neyləyəydi?" Təxminən yanaşma belədir. Hətta ən inkişaf etmişimiz belə bu cür cinayətə az qala haqq qazandırır. Namusu itə atıblar, it yeməyib... İnkişaf etməmiş Şərq ölkələrində çox vaxt bu sayaq cinayətləri yetkinlik yaşına çatmamış oğlan uşaqlarının da boynuna qoyurlar. Onlar bu əməli törətsələr də, az cəza alsınlar deyə...

Əslində son illər mətbuatda da bu cür xəbərlərin sayı artıb. "Namus cinayəti" başlığı ilə az qala hər gün iri-iri yazılar dərc edilir. Ekspertlərə görə, bu, cəmiyyətdə sözügedən xəbərləri adiləşdirir, insanlar üçün az qala normativ halına gəlir, şüurlarda da «namus cinayəti» söz birləşməsi özünə yer edir.

### "İndi namus cinayətinin adını intihar qoyurlar..."

**Amerikada qadını silahla, Hindistanda yandıraraq öldürürlər**

Mövzunu eninə-uzununa təhlil etmədən illər öncə Əhməd Ağaoğlunun bu mövzuda dediyi maraqlı bir fikri yada salmaq yerinə düşərdi: **"Əxlaqı təkcə cinsi münasibətlərlə məhdudlaşdıranlar insanı yalnız qurşağa kimi təsəvvür edənlərdir. Halbuki beldən yuxarı qəlb və ruha aid olan əxlaq sahələrində vəziyyət daha acınacaqlıdır".** Bu günümüzü əks etdirən çox gözəl bir ifadə forması olsa da, reallıqlar başqa mətləbdən xəbər verir.

Öncə ümumi rəqəmlərdən başlayaq. Birləşmiş Millətlər Təşkilatının Demoqrafik Fondunun məlumatına görə, hər il dünyada 5 mindən çox qadın namus məsələsinə görə öldürülür. Qadın cinayət qurbanlarının 70 faizi ərləri, ya da sevgililəri tərəfindən öldürülür. Dünyada hər 3 qadından 1-i həyatının bir dönəmində zorakılığa məruz qalır. Hər 5 qadından 1-i isə həyatının hansısa mərhələsində təcavüz və yaxud təcavüz cəhdinin qurbanı olur. ABŞ-da hər 90 saniyədə 1 qadın təcavüzə uğrayır, İraqda 2003-cü ilin aprelindən bu yana ən azı 400 qadın təcavüzə uğrayıb. Bu cinayətlər daha çox Banqladeş, Braziliya, Ekvator, Misir, Hindistan, İsrail, İtaliya, İordaniya, Mərakeş, Pakistan, Türkiyə, Uqanda və İngiltərədə baş verir.

ABŞ-da qadınlar daha çox silahla öldürülür, Hindistanda amansız yola əl atırlar. Hindlilər qadınları döyür, sonra da yandırırlar. Polislərə isə "mətbəx qəzası" deyib, canlarını qurtarırlar.

Türkiyədə mürtəce tayfa adət-ənənələri və namus məsələsi qadınların həyatı üçün real təhlükədir.

**Əvvəllər cinayət qurbanı zorlanmış qız olurdu, indi həyat yoldaşı...**

"Təmiz dünya" İctimai Birliyinin araşdırmalarına görə, ötən il 56 qadın öldürülüb, 32 qadınla bağlı isə ölümə qəsd faktı qeydə alınıb. Öldürülən qadınlardan 24 nəfəri qısqanclıq zəminində, 9-u ailə münaqişəsi zamanı, 1-i isə namus üstündə qətlə yetirilib. Daha 18 nəfər münaqişə nəticəsində öldürülüb. Qısqanclıq zəminində ölümə qəsdlə üzləşənlər 21 nəfər, münaqişə nəticəsində ölümə qəsdlə üzləşənlər isə 12 nəfər olub. Araşdırmaya görə, 2012-ci ildə 15 qadın əri tərəfindən öldürülüb. Kişilərin öz həyat yoldaşlarını öldürməyə cəhd etməsi ilə bağlı isə 13 fakt qeydə alınıb. 2 qadını qardaşı qətlə yetirib. Ölümə qəsdlə bağlı isə bu faktların sayı 4 olub. Kürəkəninin qətlə yetirdiyi qayınanaların da sayı az deyil - 4 nəfər. Bacısı oğlu tərəfindən 5 nəfər, tanışı tərəfindən 10 nəfər, atası tərəfindən isə 1 nəfər qətlə yetirilib. Öldürülən qadınların 3-ü balta, 3-ü isə tüfənglə qətlə yetirilib. Ölüm halları ilə bağlı qalan 50 hadisə bıçaqla törədilib.

Əvvəllər namus cinayətlərinin qurbanları əxlaqsızlıq edən və təcavüzə uğramış qızlar olurdusa, bu gün ailədaxili problemlər nəticəsində öldürülən qadınların üzərinə ləkə kimi "əxlaqsız" damğası vurulur və cinayətkar özünü namuslu insan kimi təqdim edir.

Eyni təşkilatın KİV-də apardığı monitorinqə əsasən, 2012-ci ildə təxminən 109 "namus üstündə qətl" törədilib, bu cinayəti törətmək istəyi ilə bağlı təxminən 63 cəhd qeydə alınıb. 2011-ci ildə 136 nəfər öldürülüb. 2013-cü ildə isə artıq təxminən 38 "namus üstündə qətl" törədilib.

**Problem bütün dünyanı bürüyür - "The İndependent" belə yazır**

Bununla yanaşı, "namus üstündə qətl" problemi bütün dünyada yayılıb.Bu problemə "The İndependent" qəzetinin icmalçısı Robert Fisk də diqqət yetirib. Öz materialında R.Fisk qeyd edir ki, sonuncu qadağan mövzulardan biri dünyada hər il ən azı 20 min qadının "namus üstündə" öldürülməsidir.

"Problem təkcə Yaxın Şərqin ərazisi ilə məhdudlaşmır: bu xəstəlik sürətlə yayılır" deyə, o qeyd edir.

Hüquq müdafiəçilərinin və KİV-in məlumatına görə, guya ailənin şərəfinə xələl gətirmiş günahsız insanların qətlləri ildən ilə artır.

2012-ci ilin rəsmi məlumatına görə, Azərbaycanda 5 478 qadın zorakılıq qurbanı olub. Birmənalı olaraq onların əksəriyyətini "namus cinayətlərinin qurbanları" adlandıra bilərik. Əslində cinayət məsuliyyəti yaradan əməl kimi nəzərdə tutulmayan namus və ya əxlaqi dəyərlərin qorunması mümkün deyil.

**Namus cinayətlərinin adını intihar qoyurlar**

Psixoloqlar isə məsələni tamam fərqli aspektdən izah edir. Onların qənaətinə görə, öldürülən qadınların heç də hamısı əxlaqsız olmur. Çünki öldürülən zərif cinsin nümayəndələrinin bir hissəsi iftiraya məruz qalan qadınlar, digər bir hissəsi isə ailə adət-ənənələrinə üz çevirən qadınlardı. Öldürülən 10 qadından 2-nin əxlaqsız olma ehtimalı var. Amma bunu da heç kəs sübuta yetirə bilməz.

Daha bir məqam isə odur ki, hazırda namus cinayətlərinin adını da intihar qoyurlar. Dünyadakı intiharlara nəzər saldıqda, aydın olur ki, qadın intiharları ilə kişi intiharları fərqlidir. Kişilər əsasən silahdan özlərinə atəş açmaqla, maşınla qəza törətməklə intihar edirlər. Qadınlar nisbətən asan yol seçirlər, özlərini asırlar. Yaxın Şərqdə isə vəziyyət spesfikliyi ilə seçilir. Qadınlar intihara məcbur edilirlər. Qadınları elə vəziyyətə salırlar ki, o, çarəni yalnız ölməkdə görür.

❑ Sevinc TELMANQIZI



## Bakıda qısqanc kişi arvadını bıçaqladı

**Bakıda qısqanc kişi arvadını bıçaqlayıb. Lent.az-ın Daxili İşlər Nazirliyinin saytına istinadən məlumatına görə, Mərdəkan qəsəbəsində Astara rayon sakini Taleh Əliyev qısqanclıq zəminində arvadı Pərvinə bıçaqla xəsarət yetirib.**

Polis əməkdaşlarının apardığı əməliyyat-axtarış tədbiri nəticəsində T.Əliyev tutulub.

## Ağcabədidə ağır qəza: 4 ölü



**Ağcabədi rayonunda 4 nəfərin ölümü ilə nəticələnən yol qəzası baş verib. APA-nın Qarabağ bürosunun xəbərinə görə, hadisə sentyabrın 14-də saat 22 radələrində rayonun Qaravəlli kəndində qeydə alınıb. BMW, "Mercedes" və "Daewoo" markalı minik avtomobillərinin toqquşması nəticəsində BMW-nin sürücüsü, 1982-ci il təvəllüdlü Bəbişov Elgün Fərhad oğlu, "Daewoo"nun sürücüsü Ağamalıyev Nəbi Məhəmməd oğlu, 1983-cü ildə anadan olmuş Alıyeva Naibə Əli qızı, 2007-ci il təvəllüdlü Alıyev Fəqan Kənan oğlu hadisə yerində dünyasını dəyişib.**

Bundan başqa, 1979-cu il təvəllüdlü Alıyev Kənan Vaqif oğlu, 2005-ci il təvəllüdlü Alıyeva Fərqanə Kənan qızı, 2009-cu il təvəllüdlü Alıyeva Gülçin Kənan qızı, 1997-ci il təvəllüdlü Ağamalıyev Nurlan Nəbi oğlu, 1969-cu il təvəllüdlü Quliyeva Arifə Yunis qızı və İsrafilova Səbinə Əzim qızı müxtəlif bədən xəsarətləri ilə Ağcabədi və Bərdə rayon mərkəzi xəstəxanalarına çatdırılıblar.

## Sumqayıtda BMW ağaca çırpılıb, sürücü ölüb



**Sumqayıt şəhərində BMW markalı minik avtomobili yol kənarındakı ağaca çırpılıb. APA-nın Fövqəladə Hallar Nazirliyinin (FHN) saytına istinadən verdiyi məlumata görə, nazirliyin müvafiq xilasetmə qüvvələri hadisə yerinə cəlb olunub.**

Hadisə yerində əməliyyat şəraiti qiymətləndirilərkən məlum olub ki, minik avtomobilinin sürücüsü, 1982-ci il təvəllüdlü Zahidov Füzuli Babək oğlu hadisə yerində ölüb və deformasiyaya uğramış avtomobildə sıxılmış vəziyyətdə qalıb.

Xilasedicilər təhlükəsizlik qaydalarına riayət etməklə xüsusi alət və avadanlıqlar vasitəsilə F. Zahidovun cəsədini avtomobildən çıxararaq aidiyyəti üzrə təhvil veriblər.

## Fəhlə 14-cü mərtəbədən yıxılaraq ölüb



**Bakıda fəhlə hündürlükdən yıxılaraq ölüb. Yasamal Rayon Polis İdarəsindən APA -ya verilən məlumata görə, hadisə Şərifzadə küçəsində inşa edilən binada qeydə alınıb.**

Həmin ünvanda fəhlə işləyən Füzuli rayon sakini Nahid Əliyev 14-cü mərtəbədən yıxılaraq dünyasını dəyişib.

Faktla bağlı araşdırma aparılır.

# Hotel kameraları turizmi çökdürə bilərmi?

**İlham İsmayıl:** "Bu cür videoçəkilişlərin təşkil olunması, yayılması insanların şəxsi həyatına birbaşa müdaxilədir"



**Son günlər müzakirə olunan mövzulardan biri də ABŞ-da yaşayan azərbaycanlı fəal Səid Nurinin Bakıda başına gələnlərdir. Belə ki, ABŞ-dan ailəsinə baş çəkmək üçün Bakıya gələn S.Nurinin istintaqda dindirilməsi, ardınca intim videosunun yayılması və son olaraq, ölkədən çıxarılması ilə bağlı söz-söhbətlər səngimək bilmir.**

Burada əsas diqqət çəkən məqam Səid Nurinin haqqında yayılan videodur. İçərişəhərdə yerləşən "King Palace" hotelində çəkilən videonun S.Nuri ona məxsus olmasını təsdiqləyib. Əvvəlcə "Meridian" hotelin adı mətbuatda hallansa da, gənc fəal bunun doğru olmadığını, videonun keçən ilin may ayında Bakıda olarkən İçərişəhərdə yerləşən "King Palace" hotelində çəkildiyini bildirmişdi. O, gənc olduğunu nəzərə alaraq, yaşadığı qızla intim əlaqələrinin olmasında qəbahət bir şey görmədiyini də qeyd etmişdi.

Xatırladaq ki, indiyə qədər Azərbaycanda bu cür videolar dəfələrlə yayılıb. AXCP üzvü Natiq Əbilov, yazar Qan Turalı, AXCP üzvü Azər Əhmədov, araşdırmaçı jurnalist Xədicə İsmayıl və başqaları şantaja məruz qalıblar.

Belə hadisələrin yaşanması ilə insanların şəxsi həyatlarına birbaşa müdaxilə olunduğu danılmaz bir faktdır. Bu cür hallar artmağa başlayıb.

**Təhlükəsizlik Araşdırmaları Mərkəzinin rəhbəri, Milli Təhlükəsizlik Nazirliyinin sabiq polkovniki İlham İsmayıl sovet dövründən bu sistemin mövcud olduğunu söylədi:** "Bu texnologiya yeni deyil. Sovet dövründən bu sistem mövcuddur. Kiminsə çəkilməsi intim əlaqələrinə görə yox, başqa səbəblərlə bağlı icazə əsasında ola bilər. Amma heç kəs deyə bilməz ki, bunu MTN həyata keçirir. İndi texnoloji proseslər elə inkişaf edib ki, hər şeyi aydın çəkmək üçün gözəgörünməz kameralar var. Biz bunu Elşad Abdullayevlə bağlı yayılan videolarda gördük. O baxımdan demək olmaz ki, belə izləmələr MTN tərəfindən edilir. Texnologiya elə inkişaf edib ki, gözə görünməsi mümkün olmayan kiçik bir mikrosxemlə bütün otaq aydın şəkildə görsənir. Bütün bunlar hələ köhnə texnologiyadır. Təzəsi daha yüksəkdir. Bu heç vaxt görsənmir. Adi adam onu gözlə görə bilmir".

**İlham İsmayıl videokameraların bütün otaqlarda yerləşdirilmədiyini də qeyd etdi:** "Belə kameralar bütün otaqlarda quraşdırılmır. Ancaq əməliyyat məqsədilə yerləşdirilir. Hər hansı bir şəxs cinayətdə şübhəli bilinirsə, əvvəlcədən həmin şəxsin hoteldə qalacağı otaq bəlli olursa, belə tədbirlərdən istifadə olunur. Lap sonradan belə şübhəli şəxslərin qalacağı yer məlum olarsa, yenə belə proseslər həyata keçirmək mümkündür".

**Sabiq polkovnik bu cür videokameraların hotellərdə quraşdırılmasının xaricdən gələn turistlərin səfərlərinə mane olmayacağını düşünür:** "Belə videoların turistlərə aidiyyəti yoxdur. Çünki casusluqda, cinayətdə adı hallanan şəxslərə aid edilir. Turistlər də yaxşı bilirlər ki, belə hadisələr onların başına gələ bilməz. Hansı istiqamətdən baxsaq, bütün bunlar xoşagələn hadisələr deyil".

**Ekspert hesab edir ki, yayılan videolar insanların şəxsi həyatına müdaxilədir:** "Bunlar yaxşı hal deyil. Heç kim deyə bilməz ki, bu, məhz dövlət tərəfindən həyata keçirilir. Hansısa maraqlı qüvvələr tərəfindən də təşkil oluna bilər. Texnika imkan verir ki, adi bir məsələni bu yolla həll edəsən. İstənilən halda bu cür videoların təşkil olunması, yayılması insanların şəxsi həyatına birbaşa müdaxilədir".

❑ **Cavanşir ABBASLI**

**Elan**

**Hacıqabulda ipək yolunun yanında 47 hektar torpaq sahəsi, çobanlar üçün 2- ədəd -2 otaqlı , 1ədəd- 4 otaqlı qonaq evi, 3 hektar meyvə bagı, 200 ədəd mal-qara saxlamaq ücün daşdan tikilmiş tövlələr, 10 min ot bagı üçün yem anbarı, 2ədəd balıq gölü, daimi işıgı, suyu. Qaz çəkdirmək üçün sənədlər ( texnikişərt), 0,5 hektar torpaq sahəsi olan restoran, 30 metr üzüm talvarı olan ferma satılır. Ətrafında əlavə 100-150 hektar torpaq sahəsi var.**

**Əlaqə nömrəsi : (050)-214-40-53**

**Kişilər!!!**

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**

## Əhalinin sayı açıqlandı

**Sentyabrın 15-də Dövlət Statistika Komitəsi 2014-cü ilin yanvar-avqust aylarında ölkənin iqtisadi və sosial inkişafının makroiqtisadi göstəricilərini açıqlayıb. "Media forum" saytının məlumatına görə, açıqlamada qeyd olunur ki, ümumi daxili məhsul istehsalı 2013-cü ilin yanvar-avqust ayları ilə müqayisədə 2,4 faiz artaraq 39,2 milyard manat təşkil edib. Əhalinin hər nəfərinə orta hesabla 4170,3 manat məbləğində (5317,3 ABŞ dolları) əlavə dəyər istehsal olunub və ötən ilin müvafiq dövrü ilə müqayisədə 1,1 faiz artıb. Əlavə dəyərin 57,3 faizi qeyri-neft sektorunda istehsal olunaraq əvvəlki ilin yanvar-avqust ayları ilə müqayisədə 6,3 faiz artıb, neft-qaz sektorunda isə 2,6 faiz azalıb. İqtisadiyyatın qeyri-enerji sektorunda 6,3 faiz artım müşahidə olunub.**

Dövlət Gömrük Komitəsindən daxil olmuş məlumatlara əsasən, yanvar-iyul aylarında 137 xarici ölkə ilə 18,1 milyard dollar məbləğində ticarət əməliyyatları həyata keçirilib. Ticarət əlaqələrinin 9,2 faizi, yaxud 1,7 milyard dollarlığı MDB üzvü dövlətləri ilə, 90,8 faizi və ya 16,4 milyard dollarlığı digər ölkələrlə aparılıb. Qeyri-neft məhsullarının ixracı yeddi ay ərzində 3,4 faiz azalıb.

2014-cü ilin yanvar-iyul aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq əmək haqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 6,1 faiz artaraq 440,8 manat təşkil edib.

Ölkə əhalisinin sayı ilin əvvəlindən 63,3 min nəfər və ya 0,7 faiz artaraq 2014-cü ilin avqust ayının 1-i vəziyyətinə 9 milyon 540 min 400 nəfərə çatıb.

## Azərbaycan neftinin qiyməti 100 dollardan aşağı düşdü

**Azərbaycan neftinin qiyməti 100 dollarlıq psixoloji həddən aşağı düşüb. Dövlət Neft Şirkətindən verilən məlumata görə, "AzəriLayt" markalı neftin bir barreli London birjasında 0,35 dollar ucuzlaşaraq 97,98 dollar təşkil edib.**

Dövlət büdcəsində neftin 1 barrelinin qiyməti 100 dollar proqnozlaşdırılıb.

Ümumiyyətlə, dünya bazarlarında neftin qiymətində enmələr müşahidə olunur. Nyu-Yorkun NYMEX ("New York Mercantile Exchange") birjasında "Layt" markalı neftin bir barreli 0,56 dollar ucuzlaşaraq 92,27 dollar, Londonun İCE ("İnterContinental Exchange Futures") birjasında isə "Brent" markalı neftin bir barrelinin qiyməti 0,12 dollar azalaraq 97,96 dollar olub.

**Başsağlığı**

**İlham Məmmədov ailəsi ilə birlikdə ADS-nin dosenti Cəmilə Məhərrəmovaya bacısı Ədilə Məhərrəmovanın vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

## Bakıda AFFA və «Bakcell» şirkətinin dəstəyi ilə Mançester Yunayted Futbol Məktəbi açılır

Azərbaycan Futbol Federasiyaları Assosiasiyası klubun rəsmi telekommunikasiya və yayım tərəfdaşı olan «Bakcell» şirkəti ilə əməkdaşlıq edəcəkdir

Azərbaycanın ilk mobil operatoru və aparıcı mobil internet provayderi olan «Bakcell» şirkəti Azərbaycan Futbol Federasiyaları Assosiasiyası (AFFA) və İngiltərənin «Mançester Yunayted» futbol klubu arasında «Bakcell» şirkətinin dəstəyi ilə baş tutan yeni tərəfdaşlıq münasibətləri çərçivəsində Bakıda daimi fəaliyyət göstərəcək Mançester Yunayted Futbol Məktəbinin açılacağını elan edir.

MANCHESTER UNITED SOCCER SCHOOLS
AFFA bakcell

İlkin mərhələdə, akademiyanın istedadlar qruplarında hər birində 16 uşaq olmaqla 32 uşaq oxuyacaq. İstedadlar qruplarında təhsil pulsuz olacaqdır. Uşaqlar hər bir kateqoriya üzrə «Mançester Yunayted» klubundan ezam olunan məşqçilər tərəfindən seçim prosesində seçiləcəklər.

İstedadlar qrupları və kommersiya əsaslı qruplar iki yaş qrupu üzrə təşkil olunacaq:

1) U8/U9 - (2006 və 2007-ci il təvəllüdlü) - 16 uşaq
2) U10/U11 - (2004 və 2005-ci il təvəllüdlü) - 16 uşaq

Məşqlər «Mançester Yunayted» futbol məktəbindən ezam olunan məşqçilər və iki nəfər yerli məşqçi assistenti tərəfindən keçiriləcəkdir. Məşqlərə başlamamışdan əvvəl uşaqlara ingilis dili tədris olunacaqdır (məşqdən qabaq həftədə ən azı iki dəfə). İstedadlar qruplarının seçilməsi 23 sentyabr tarixində "Bayıl Arena" stadionunda keçiriləcəkdir. İstedadlar qruplarının seçilməsi prosesi başa çatdırıldıqdan sonra kommersiya əsaslı qrupların seçim prosesi başlayacaqdır.

Qeydiyyatdan keçməyi istəyənlər sentyabrın 12-dən 22-dək, iş günlərində, saat 09:00-dan 18:00-dək aşağıdakı əlaqə məlumatlarından istifadə edərək AFFA-nın nümayəndələri ilə əlaqə yarada bilərlər:

Ramin Həsənov: Tel: +994 55 511 20 80 E-poçt: ramin.hasanov@affa.az ailto:E-pozt:%20ramin.hasanov@affa.az

Kifayət Osmanova: +994 55 511 70 72 E-poçt: kifayat.osmanova@affa.az ailto:kifayat.osmanova@affa.az

**AFFA-nın prezidenti cənab Rövnəq Abdullayev** «Bakcell» şirkətinin dəstəyi ilə Azərbaycan Futbol Federasiyaları Assosiasiyası və milyonlarla azarkeşi olan İngiltərənin dünya şöhrətli «Mançester Yunayted» klubunun birgə həyata keçirdikləri bu layihə - «Mançester Yunayted» futbol məktəbinin Bakıda fəaliyyətə başlaması - ölkənin futbol həyatında çox önəmli bir hadisədir. Bakıda fəaliyyət göstərəcək bu futbol məktəbi ölkədə futbolun keyfiyyət səviyyəsinin yüksəldilməsində xüsusi rol oynayacaqdır. Həftədə ən azı iki dəfə keçiriləcək məşqlərdən qabaq uşaqlara ingilis dili dərsləri keçiriləcəkdir ki, bu da, həmçinin, təqdirəlayiq bir haldır. Ümidvaram ki, «Mançester Yunayted» futbol məktəbinin Azərbaycanda həyata keçirəcəyi işlər çox qısa bir zamanda öz bəhrələrini verəcək və burada oxuyan uşaqlar ölkə futboluna öz layiqli töhfələrini verə biləcəklər. Biz, AFFA-nın adından «Bakcell» şirkətinə və «Mançester Yunayted» klubuna səmimi qəlbdən təşəkkürümüzü bildiririk" demişdir.

**«Bakcell» şirkətinin baş icraçı direktoru cənab Riçard Şirer** "Azərbaycanın milli futbol komandasının sponsoru və MDB məkanında "Mançester Yunayted" klubunun ilk telekommunikasiya və yayım tərəfdaşı olaraq, «Bakcell» şirkəti ölkəmizdə futbolun inkişafına dəstək göstərir və AFFA ilə tərəfdaşlıq əlaqələri çərçivəsində gənclər futbolunun inkişaf etdirilməsi ilə bağlı müxtəlif layihələr həyata keçirir. «Mançester Yunayted» Futbol Məktəbinin regionda ilk dəfə olaraq Bakıda fəaliyyətə başlaması ölkəmizdə uşaq futbolunun inkişafına olan diqqət və qayğının nəticəsidir. Futbola olan böyük marağı və Azərbaycanda uşaqların ciddi potensiala malik olduqlarını nəzərə alaraq, xalqın mobil operatoru olan «Bakcell» şirkəti uşaq futbolunun inkişafına yönəlmiş uğurlu layihələri həyata keçirməkdən fəxr hissi duyur və şirkətimiz bu istiqamətdə əhəmiyyətli işlərin görülməsini gələcəkdə də davam etdirmək əzmindədir" deyə bildirmişdir.

AFFA 1992-ci ildə təsis edilib. Təşkilat 1994-cü ildən FİFA-nın və UEFA-nın üzvüdür. AFFA-nın vəzifələrinə Azərbaycan Respublikasında futbolu kompleks şəkildə inkişaf etdirmək, yarışların təşkilinə nəzarət etmək və onları tənzimləmək, futbolla bağlı beynəlxalq idman əlaqələrini təkmilləşdirmək, beynəlxalq yarışlarda və oyunlarda Azərbaycan futbolunu təmsil etmək, habelə milli və beynəlxalq səviyyədə keçirilən yarışları təşkil etmək daxildir və AFFA bu istiqamətdə məqsədyönlü fəaliyyət göstərməkdədir.

Azərbaycanda futbolun inkişaf etdirilməsini qarşıya məqsəd qoyaraq, AFFA bir sıra nüfuzlu şirkətlərlə əməkdaşlıq etməkdədir. Belə şirkətlərdən biri də milli futbol komandamızın sponsoru olan Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi «Bakcell» şirkətidir. 17 dekabr 2013-cü ildə AFFA və «Bakcell» şirkəti arasında əməkdaşlıq müqaviləsi imzalanmışdır. Qarşılıqlı əməkdaşlıq futbolun müxtəlif istiqamətlərdə inkişafına öz töhfəsini vermişdir. AFFA tərəfindən 8-ci km qəsəbəsində inşa olunmuş stadiona "«Bakcell» Arena" adı verilmişdir. AFFA-nın U-17 Liqasının oyunları "«Bakcell» U-17" adı altında keçirilir. "«Bakcell»lə Futbol" layihəsi çərçivəsində isə uşaq futbolunun inkişafına yönəlmiş xeyli işlər görülmüşdür.

AFFA və «Bakcell» şirkəti arasında imzalanmış birgə tərəfdaşlıq müqaviləsi çərçivəsində ölkənin bütün bölgələrindən seçilmiş 64 uşaq Bakıdakı «Mançester Yunayted» futbol məktəbində keçirilən məşqlərdə iştirak etmişlər.

Xüsusi bacarıqları ilə fərqlənmiş uşaqlar (2013-cü ildə 6 uşaq və bu il 5 uşaq) Mançester şəhərində fəaliyyət göstərən Denston Kollecində təşkil olunmuş «Mançester Yunayted» futbol məktəbində iştirak etmişlər. AFFA və «Bakcell» şirkəti müştərək fəaliyyətlərini futbolun inkişafı naminə davam etdirməkdədirlər.

YENİ MÜSAVAT
N 231 (5940) 16 sentyabr 2014

# Ruslar Jirinovskidən hamamda müsahibə aldı... Bəs bizimkilər?




**Məlum olduğu kimi, Rusiyanın NTV kanalı Liberal Demokrat Partiyasının lideri Vladimir Jirinovski ilə hamamların birində müsahibə götürüb. "Mujskoe dostoinstvo" adlı verilişin çəkilişi zamanı Jirinovski çılpaq vəziyyətdə hamamın xeyrindən danışmaqla bərabər, Qərb liderlərinə söz atmağı da unutmayıb.**

Jirinovski bildirib ki, hamam kişi üçün əsl idmandır: "Bu, xoşdur. O yuyunur, çirkin təmizləyir. Su istidi, əhval-ruhiyyə yaxşılaşır. Hamam hər kəsi bərabərləşdirir. Burda hamı çılpaq, hamı bərabərdir".

Maraqlıdır ki, bu müsahibəni götürən...xanım jurnalist olub. Və elə səs-küyə səbəb olan da bu məqamdır. Məlum, məqsəd diqqət çəkmək olub və deyəsən alınıb da. "Jurnalistikada səs-küy yaratmaq üçün hər cür yol məqbuldur" deyə, düşünülən Rusiya, Qərb mətbuatının əksinə olaraq, bizdə bəlli tabular var. Müsahibi ilə gəzintiyə çıxıb, ona intim suallar verən xanım jurnalistlər hələ də mətbuat nümayəndələrinin "çeynədiyi saqqız"lardandır. "Yadındadır, filankəs filan müsahibədə özünü necə biabır elədi" tipli müzakirələri azmı eşitmişik?

Odur ki, bu nümunədən çıxış edib, biz də tanınmış xanım jurnalistlərimizdən soruşduq: hamamda müsahibə... janrına necə baxırsız? Bu, bir qadın jurnalist üçün üstünlükdür, yoxsa...? Və hər şeydən önəmlisi - Azərbaycan mətbuatında bu, mümkündürmü?

**Meydan TV-nin əməkdaşı, tanınmış reportyor Sevinc Vaqifqızı bildirdi ki, Jirinovskidən götürülən məlum müsahibə ilə tanışdır və onun normal hazırlandığını düşünür:** "Jurnalistlər həm də kompleksləri dəf etmək üçün çalışmalıdırlar. Kompleksiz cəmiyyət daha rahat cəmiyyətdir. Orada jurnalistin və müsahibin qeyri-adi bir davranışı yoxdur. Müsahiblə mövzuya uyğun çimərlikdə, hamamda da müsahibə almaq olar. Jurnalist açıq cəmiyyət yaratmaq işində yer alır, qapalı, mental cəmiyyət yaratmaq işində yox. Çalışmaq lazımdır ki, tabular qırılsın. Hər zaman kabinetdə, ciddi görkəmdə, rəsmi dildə, ifadəsiz üzlə tamaşaçını yormaq lazım deyil, hərdən belə maraqlı müsahibələr də etmək lazımdır ki, rəsmilər də qeyri-rəsmi həyatlarını paylaşsınlar".

**Tanınmış jurnalist Günay Arda isə hesab edir ki, Azərbaycanda hətta türkiyəli jurnalist Ayşə Armanın yataqda aldığı müsahibələrə də don geyindirirlər. Halbuki A.Arman yüksək səviyyədə təhsil alıb, mütaliəsi müsahibələrinin səviyyəsini aşır:** "Hamı ona şou adamı deyir, amma İlker Başbuğ kimi möhtərəm adam müsahibə üçün onu seçir. Yaxşı müsahibə oxucusunu tapır. Açıq - saçıq başlıq olmasa da, lap elə qalstukda alınsa da. Biz NTV müxbirini indi müzakirə ediriksə, deməli, həmkarımız istəyinə çatıb. Jirinovski elə adamdır ki, indiyədək hər şeydən danışıb. Ondan hansı müxbir müsahibə alsa, kölgədə qalmağa məhkumdur. Məqsəd oxutmaqdırsa, hər yol qəbuledilləndir".

**G.Arda hesab edir ki, Azərbaycanda Jirinovski qədər maraqlı obyekt yoxdur ki, ondan müsahibə almaq üçün özünü tərlədəsən:** "Amma bu müsahibə Rusiya kimi münasibətlərin rahat başa gəldiyi ölkədə müzakirə olunursa, görün, bizdə nə olar? Xanım jurnalisti kənara qoyaq, bizdə buna hünəri çatan politoloq varmı? Mənim üçün ən maraqsız müsahiblər yerli siyasilərdir. Çoxunun nəinki müsahibə üçün, heç çimmək üçün də hamama girdiyinə adamın inanmağı gəlmir".

**Həftə.az saytının redaktoru Səbinə Əvəzqızı da bu məsələdə həmkarları kimi düşünür. Onun fikrincə, əsas odur ki, niyyət yaxşı olsun:** "Jurnalist arada çərçivələri qırmaq məcburiyyətindədir. Məncə, siyasətçinin yatağı bir qədər ağıllı fikir olmaz. Amma hamam, hovuz, sauna niyə də maraqlı olmasın? Jirinovskidən saysız-hesabsız müsahibələr götürülüb. Amma fikir verin, hansı daha çox yadda qalacaq? Bizim məqsədimiz nədir? Daha çox oxucuya çıxmaq, eləmi? Bunun üçün hamama getmək niyə qəbahət olsun ki? Kim istəmir arvadını, qızını göndərməsin. Heç dəxli var? Jurnalist gedib orda nə pis iş gördü ki? Yəni buna qətiyyən pis baxmıram".

**Araşdırmaçı jurnalist Aynur İmranovanın sözügedən mövzuda fikirləri tam fərqlidir. O hesab edir ki, əgər təklif Jirinovski tərəfdən gəlibsə, onun əxlaqsızlığıdır:** "Jurnalist qəbul edibsə təklifi bu, bütövlüksə jurnalist peşəsinə hörmətsizlikdir: Mən bu reportajın yenilik kimi maraqlı olduğunu deyənləri anlamıram. Bu nə yenilik? Bu tamaşaçıya da hörmətsizlikdir. Mənçə, jurnalist kreativliklə həddini aşmağın arasındakı sərhədi tuta bilməyib. Bir siyasətçidən deyil, heç şou-biznes əhlindən də hamamda müsahibə alıb təqdim eləməyi doğru hesab eləmirəm. Müsahibəni kişi jurnalist götürsəydi belə..."

❑ Sevinc TELMANQIZI



**Günay Arda:**
"Məqsəd müsahibəni oxutmaqdırsa, hər yol qəbuledilləndir"



**Səbinə Əvəzqızı:**
"Daha çox oxucuya çıxmaq üçün hamama getmək niyə qəbahət olsun ki?"



**Sevinc Vaqifqızı:**
"Çalışmaq lazımdır ki, tabular qırılsın"



**Aynur İmranova:**
"Nəinki siyasətçidən, heç şou biznes əhlindən də hamamda müsahibə alıb təqdim etmək doğru deyil"

# Qədirin səsi ilə oxuyan Qədirov...

## Sosial şəbəkələrdə videosu yayılan yanıqlı səsə sahib çoban Əhmədxan "Yeni Müsavat"a nələr danışdı?

(əvvəli ötən sayımızda)

**...Şirvanın konservatoriyası sayılan Qobustanın Şıxzərli kəndindən ayrılırıq. Qədirin səsini andıran Əhmədxanı görmək üçün gəldiyimiz bu kənddən onun köçdüyünü öyrənib, ailəsi ilə yaşadığı Qobustan qəsəbəsinə yola düşürük. Sosial şəbəkələrin videosunu yaydığı, xəbər portallarının da tirajladığı bu balaca çobanın kimliyini öyrənməkdə israrlıyıq. Axı kimdir bu uşaq, qoyun-quzu otararkən oxuyanda o məşhur videonu kimlər çəkib?**

***

Necə olub ki, bu azyaşlı istedad bu vaxta qədər üzə çıxmayıb? Suallarımız çox, cavabları isə Əhmədxanın özündən eşitmək lazımdır. Mərhum muğam ustası Qədir Rüstəmov kimi yanıqlı səsə sahib olduğu deyilən Əhmədxanla, nəhayət, görüşə bilirik. Atası Xəqani Qədirov bizi Qobustan qəsəbəsinin girişində qarşılayıb, evinə aparır.

Qədirovlar ailəsinə gələndə məlum olur ki, Əhmədxan yenə də yoxdur. Bu dəfə istedadlı uşağın təhsilinin dalınca getdiyini öyrənirik. Az sonra 14 yaşlı talant gəlir.

**2000-ci il təvəllüdlü olan Əhmədxan Şıxzərli kəndində anadan olub. Atasının sözlərinə görə, 7 yaşından uşağın səsi olduğunu hiss ediblər:** "Elə o vaxtdan zümzümə edirdi, mən də məəttəl qalırdım. Deyirdim, ilahi, bu uşağın necə gözəl səsi var?! Özü də oxumağı kimdənsə öyrənməyib. Kənddə heç televizor da yoxdur ki, oturub muğama baxıb, öyrənsin. Hərdən mobil telefonumda xanəndələrin videolarına baxardı, belə öyrənərdi. İntəhası, mənim günahım çox olub".

**X.Qədirov deyir ki, günahı övladına təhsil verməməsidir:** "Əhmədxan məktəbə getməyib. Günahkar da mən olmuşam ki, uşağın təhsili ilə ciddi məşğul olmamışam. Başım qarışıb elə təsərrüfat işlərinə, uşağın dərsləri kənarda qalıb. Ona görə də indi ən vacib məsələ oxumağı-yazmağı bilməsidir.

Bilirsiniz ki, o videodan sonra telekanallar çəkilişə gəldi, internetdə yazdılar. Uşaq bir günün içində məşhurlaşdı. Biz də götürdük onu böyük sənətkarımız Ağaxan Abdullayevin yanına apardıq. Ağaxan müəllim dedi ki, ən əsası təhsildir.





Uşaq hökmən oxumalıdır, yazmağı bilməlidir. Savad olmayanda xanəndəlik mümkün deyil".



**X.Qədirov oğluna təhsil verməyə başlayıb:** "Yenə deyirəm ki, günah məndə olub. Uşağın bu istedadını üzə çıxarmaq üçün bir addım ata bilməmişəm. Özüm mal-heyvan saxlamaqla məşğul idim. Mosu da *(Əhmədxanı ailəsi, dostları, qohum-əqrəba belə çağırır)* qoyun-quzu otarmağa gedəndə özü üçün zümzümə edib.

İndi müəllim yanına qoymuşam, yazmağı-oxumağı öyrənir, əsas dərslərinə fikir verməlidir. Sağ olsun Ağaxan müəllim, dedi bir il sonra uşaq gəlsin, muğamı mənimsəməyə başlasın. O vaxtacan təhsilində yəqin irəliləyiş olacaq".

**Əhmədxanın atasının sözlərinə görə, oğluna hələlik zil səsdən oxumağa icazə verilmir:** "Mosunun 14 yaşı var. Bu yaşda uşaqlarda keçid dövrü olur, səs tonu dəyişir. Bu keçiddə səsi olan adama zildən oxumaq olmaz. Ağaxan müəllim dedi ki, o dövrü geridə qoysun, sonra icazə olar".

***

**Danışmaqdansa oxumağı sevən Əhmədxan bizimlə söhbətində məlum videonun necə çəkildiyini nəql etdi:** "Mal-qara otaranda həmişə oxumuşam. Elə də çox mahnı bilmirdim, özbaşıma oxuyurdum. Telefonda oturub baxırdım, öyrənirdim. Bizim kənddə hamı muğama qulaq asır. Hamının telefonunda muğam var".

**Əhmədxan deyir ki, hər gün mal-qaraya gedirdi:** "O videonu da həmin vaxt çəkiblər. Ovçular gəlmişdilər, kəklik, dovşan vururdular. Heç bilmirdim onlar kimdirlər. Bu günə qədər də bilmirəm ki, onlar kim olub. Amma hər kimdirsə sağ olsunlar. Məni gördülər, dedilər ki, Şıxzərlidə oxuyan çox olur. Sənin də səsin yəqin olar. Ondan sonra məni oxutdular, səsimə qulaq asdılar, videoya çəkib yaydılar. Mən orda "Şirvan şikəstəsi" oxumuşdum".

**Əhmədxan deyir ki, Şıxzərli sənətkarlar yetişdirib:** "Bizim kənddən Zabit Nəbizadə, Abgül, Aşıq Abbas çıxıb. Kənddə oxuya bilən çoxdur. Mən indi əsas dərslərimi öyrənirəm. Çünki savadım yoxdur, müəllim yanına gedirəm.

İnşallah, ondan sonra xanəndəliyə başlayacağam. Böyük arzularım var. Mən də istəyirəm ki, muğam müsabiqəsində iştirak edim, xaricə gedib çıxış edim. Kim istəməz ki? Evdə Əliağa Vahidin qəzəlləri olan kitabım var. O kitabdan qəzəlləri öyrənib oxuyuram".

Qədirovlar ailəsi ilə söhbət əsnasında o da məlum olur ki, bu azyaşlı istedadın atasının da səsi var. Xəqani bəy deyir ki, bu sirr kəndin suyunun, havasının təsirindəndir. Onun sözlərinə görə, səsi olsa da, heç vaxt oxumağın dalınca getməyib, amma oğlunun sənəti üçün əlindən gələni edəcək. Daha sonra həm ata, həm oğul "Yeni Müsavat" üçün bir ağız muğam ifa edirlər. Qədirin səsini andıran uşağın səsinə musavat.com saytında dinləyə bilərsiniz...

❑ "Yeni Müsavat"ın Reportyor Qrupu
Qobustan qəsəbəsi

YENİ MÜSAVAT

Son səhifə

N 231 (5939) 16 sentyabr 2014



## Yeni insan “növü”...

Yeni texnologiyaların və təbii seleksiya sayəsində yeni tip insan formalaşdırılır. Global Brain İnstitutunun mütəxəssisi Kadell Last bildirib ki, bəşəriyyət ciddi təkamül dövrü yaşayır. Ən azı 40 ildən sonra orta ömür artacaq və insanlar qoca vaxtında da övlad sahibi ola biləcəklər. Bundan başqa, insanlar gündəlik işlərini yerinə yetirmək üçün süni intellektdən də istifadə edə biləcəklər. Mütəxəssis bu təkamülü meymundan insana keçid təkamülü ilə müqayisə edir. Əgər bu mülahizə doğru olsa, müasir dövrümüz orta əsrlərdən necə fərqlənirsə, gələcək dünya da indikindən elə fərqlənəcək. “80 və ya 100 yaşlı insanlar indiki nənə və babalardan çox fərqlənəcəklər”, - deyə Last bildirib. Onun sözlərinə görə, gələcəyin insanlarına cinsi yetkinliyin gecikməsi xarakterik olacaq. “Sürətli yaşamaq və gənc ölmək” şüarı öz aktuallığını itirəcək və insanlar gələcəkdə uzun ömür yaşayacaq və çox qoca yaşda öləcəklər. Təkamülçü alimlərin bəziləri onunla razıdırlar və 2015-ci ilə orta insan ömrünün 120 il olacağını proqnozlaşdırırlar. Lastın dedikləri artıq özünü doğruldur. Bu gün Qərbdə orta ömür artır. 1970-ci ildə ABŞ-da 30 yaşdan sonra dünyaya uşaq gətirən qadınların sayı 1% idisə, 2012-ci ildə bu rəqəm 15%-ə çatıb.

# Qocalmağın qarşısını almaq mümkün olacaq



Kaliforniya Universitetinin araşdırmaçıları yaşlanmağın təsirlərini azaldan yeni bir gen kəşf etdiklərini açıqlayıblar. Milçəklərdə AMPK adı verilən bir geni aktivləşdirən araşdırmaçılar onların yaşama müddətini 30 faiz artırdıqdan sonra daha sağlam olmaları üçün şərait yaradıblar. Araşdırmaçı qrupun rəhbəri olan David Valker milçəklərin bağırsaqlarında və mədəsində sözügedən geni aktivləşdirdikləri zaman yaşlanmağın daha da gecikdiyini gördüklərini deyiblər. “Discovery News”in xəbərinə görə, insanlarda da milçəklərdə olan gen mövcuddur, lakin aktiv şəkildə istifadə edilmir. Əgər bu geni bağırsaqlarda aktivləşdirmək mümkün olarsa, insanlar daha gec qocalacaqlar. Beləliklə, beyində yaranan xəstəliklərin də qarşısı alına biləcək. Parkinson, yaddaşsızlıq, iflic, infarkt, şəkər xəstəlikləri də daha yavaş irəliləyəcək.

# Ən ağıllı heyvanlar

*1. Şimanzelər.*

*2. Tutuquşular* - quşlar arasında ən ağıllısı Jako tutuquşusudur. Arizona Universitetində tələbə olan İren Papparberg sərbəst danışmağı və əşyalar arasında fərqləri müəyyən etməyi öyrədib.

*3. Fillər* - bu nəhəng heyvanlar ağıllı olmaqdan əlavə, həm də emosionaldırlar.

*4. Dəniz aslanı* - bu dəniz məməlisi də məntiqi düşüncəsi ilə fərqlənir.

*5.* İntellektin inkişafına görə, itlər iki yaşlı uşaqla eyni səviyyədə inkişaf edir. Onlar asanlıqla 300 söz öyrənə bilir.

*6. Qarğalar* - lələklilər arasında ən böyük beyin qarğaya məxsusdur. Bu quşlar düşünür, emosiyalar yaşayır, öyrənirlər.

*7. Babuinlər* - primatların qohumlarıdır, bir çox xüsusiyyətlərdə insanlara bənzəyir, inkişaf etmiş sosial təşkilatçılığa malikdirlər.

*8. Qarışqalar* - onların hiyləgərlikləri yaxşı məlumdur.

*9. Delfinlər* - heyvandar dünyasında nadir istedada malik olan delfinlər güzgüdə özlərini tanıya bilirlər.





## IV qan qrupundan olanlar təhlükədədir

Ağıl zəifliyinin birbaşa qan qrupundan asılı olduğu müəyyənləşib. Vermont Universitetinin alimlərinin keçirdiyi araşdırmalarda 30 min nəfər iştirak edib. Təcrübə göstərib ki, kəmağıllılığın birbaşa səbəblərindən biri də qan qrupudur. Daha çox IV qan qrupu olan insanlar yaşlı vaxtlarında yaddaş və düşünmə qabiliyyəti problemləri ilə rastlaşırlar. 30 min nəfərdən 495-də yaddaş və düşünmə qabiliyyəti ilə bağlı çətinliklər aşkarlanıb. Həmin 495 nəfərin əksəriyyəti IV qan qrupu olan insanlardır. Bu, nadir qan qrupudur və planetin əhalisinin cəmi 4%-də rast gəlinir. Bu qan qrupuna sahib insanlarda ağıl zəifliyi riski başqalarına nisbətən 82% daha çoxdur. Mütəxəssislərin fikrincə, bu xəstəliklərə meyllilik intellekt və təhsildən asılı deyil. Xəstəlik sosial status seçmir. Sinir sistemi yaşlı vaxtı həyatdakı dəyişikliklərə bu cür reaksiya verir. Belə reaksiyaların yaranmasına səbəb isə daha çox hipertoniya, ateroskleroz və zədələnmiş beyin damarlarının olmasından asılıdır.




**QOÇ** - Qarşınızda hər mənada uğurlu bir gün durur. Bunun üçün daxili inam və qətiyyət kifayət edər. Nahardan sonra şad xəbər eşidəcəksiniz. Ulduzlar bəxtinizə pul da çıxarmaq əzmindədir.

**BUĞA** - Üzləşdiyiniz proseslər narahatçılığınızı artıra bilər. Bu səbəbdən də bütün vacib planlarınızı təxirə salmalısınız. Yaxın bildiyiniz adamlar sizə qarşı xoşagəlməzliklər edəcək.

**ƏKİZLƏR** - Ay bürcünüzdə olduğundan bu gün kənardan kiminsə dəstəyinə ehtiyacınız var. Bunsuz hansısa nailiyyətə yetişəcəyinizi mümkünsüzdür. Öz növbənizdə siz də aktivliyinizi artırmalısınız.

**XƏRÇƏNG** - Günortaya qədər adi işlərin həlli ilə məşğul olun. Nahardan sonra isə böyük məsələlərin həllinə başlamağa dəyər. Axşama yaxın gözləmədiyiniz istiqamətdən təzə xəbər eşidəcəksiniz.

**ŞİR** - Yalnız sabitliyinizi qorumağa çalışın. Xırda bir yanlışlıq gün ərzində nəzərdə tutduğunuz işləri alt-üst edə bilər. Odur ki, qərar çıxarmazdan qabaq mövcud reallığı nəzərə almalısınız.

**QIZ** - Yeni əlaqələr yaratmaq, işgüzar danışıqlar aparmaq sizə xüsusi zövq verəcək. Bu yönümdə sevgi amili daha qabarıq tərzdə nəzərə çarpacaq. Amma müsahiblərinizə yalan vəd verməməlisiniz.

**TƏRƏZİ** - Olduqca romantik bir təqvimdir. Dünənə qədər sizə şübhə ilə yanaşanların əksəriyyəti səmimiliyinizin şahidi olacaqlar. Sevdiyiniz adamların yanında olmağınız günün vacib tələbidir..

**ƏQRƏB** - Göy qübbəsi daha çox ikitərəfli əlaqələrdə bəxtinizin gətirəcəyini bildirir. İstər ailə-sevgi məsələlərində, istərsə də işgüzar münasibətlərdə vəziyyətiniz qənaətbəxş olacaq.

**OXATAN** - İxtiyarınızda olan bu tarixdə təmkininizi qorumalısınız. Hər hansı çılğınlıq və ya əsəblərin qabarması bütün işləri korlaya bilər. Riskli planlarınızı mümkün qədər təxirə salın.

**OĞLAQ** - Ümumi məziyyətlərinə görə qalmaqallı gündür. Az qala hər addımda gərginliklə rastlaşacaqsınız. Əsas enerjinizi münasibətlərə deyil, işə həsr etməklə bu xoşagəlməzliyi dəf edə bilərsiniz.

**SUTÖKƏN** - Mistik bir gün yaşayacaqsınız. Daxili harmoniyanız pozulduğundan real olmayan şeylər barədə düşünə bilərsiniz. Bunun qarşısını almaq üçün yaxşı olar ki, vaxt tapıb ziyarətgahlara gedəsiniz.

**BALIQLAR** - Romantika ilə dolu olan bir tarix yaşayacaqsınız. Maddi durumunuz imkan versə, uzaq səfərə də çıxın. Qarşıdakı günlər üçün vacib olan bir neçə mühüm görüş keçirməniz məsləhətdir.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Makiyajın zərərləri



Demək olar ki, hər qadın makiyaj edir. Bəzi xanımlar son dərəcə yüngül, bəziləri isə olduqca ağır və iddialı makiyaj edir. Makiyaj istər yüngül, istərsə də ağır olsun, qətiyyən makiyaj təmizlənmədən yatmayın. Hər makiyajda kirpik üçün tuş istifadə edilər. Siz yatarkən bütün bir gecə kirpiklərinizin üzərində dayanan kimyəvi maddə quruyaraq sərtləşir və kirpiklərinizi də qurudaraq tökülməsinə və gücsüzləşməsinə səbəb olar. Üzünüzə çəkdiyiniz pudra, tonal krem, buna bənzəri məhsullarla yatağa girdiyinizdə dərinizdəki məsamələrin bağlanmasına səbəb olur. Çünki gecə siz yatarkən dəri özünü yeniləyir. Makiyajlı vəziyyətdə dəri özünü yeniləmədiyi üçün erkən yaşlanma əlamətləri görünməyə başlayacaq. Əgər dərinizin tamamilə sağlam görünməsini və yaşlanma əlamətlərini gecikdirmək istəyirsinizsə, dəri təmizliyinə diqqət göstərməlisiniz.

**Səhifəni hazırladı: ŞAHNAZ**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

“Yeni Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib, “Azərbaycan” nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 5.600